ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 33 (1515) ❖ Cümə, 6 noyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AIREX 2026" sərgisi ilə tanış olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 4-də Bakı Ekspo Mərkəzində keçirilən "AIREX 2026" - Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisi ilə tanış olublar.

"PASHA Property Management" şirkətinin təşkilatçılığı ilə keçirilən Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisində 47 yerli, 14 xarici olmaqla ümumilikdə 61 şirkət iştirak edir.

Qeyd edək ki, dövlətimizin başçısının Sərəncamı ilə 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunub. Sərginin təşkili ölkəmizdə daşınmaz əmlak, memarlıq və tikinti sahələrinin inkişafına dövlət səviyyəsində göstərilən diqqəti bir daha nümayiş etdirir. Sərgi mənzil almaq, yaşayış şəraitini yaxşılaşdırmaq və daşınmaz əmlaka investisiya yatırmaq istəyən şəxsləri, böyük investorları, şirkətlərin təmsilçilərini və sektorun peşəkarlarını vahid platformada birləşdirir, əmlak bazarının iştirakçıları arasında dialoqun genişləndirilməsi, təcrübə mübadiləsi və yeni əməkdaşlıq imkanlarının müzakirəsi baxımından mühüm rol oynayır.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "PMD Group" şirkətinin stendi ilə tanış olublar.

"PMD Group" 2013-cü ildən bəri daşınmaz əmlaka investisiya, layihələrin inkişafı və idarə edilməsi istiqamətində fəaliyyət göstərir. Şirkət yaşayış, kommersiya və ictimai-sosial təyinatlı layihələr icra edir. "PMD Group" və ona daxil olan şirkətlər tərəfindən paytaxtdakı Zəfər parkının inşası həyata keçirilib, Bakı və Abşeronla yanaşı, işğaldan azad edilmiş rayonlarımızda da bir sıra layihələr icra olunub və hazırda bu işlər davam edir.

Sərgidə iştirak edən, "PASHA Holding"in tərkibinə daxil olan "PAŞA Real Estate Qrup" daşınmaz əmlaka investisiya qoyuluşu, layihələrin inkişafı və əmlak aktivlərinin idarə edilməsi sahələrində fəaliyyət göstərir. Qrup Azərbaycanda və daha beş ölkədə - Türkiyə, ABŞ, Monteneqro, Gürcüstan və Özbəkistanda nüfuzlu beynəlxalq brendlərlə əməkdaşlıq çərçivəsində layihələr həyata keçirir.

Dövlətimizin başçısı, birinci xanım və qızları "Sea Breeze"in stendinə baxıblar, həyata keçirilmiş işlər və perspektiv layihələrlə tanış olublar.

Qeyd edilib ki, əsas məqsəd "Sea Breeze"in beynəlxalq səviyyəli müasir şəhər kimi inkişafını davam etdirmək, xarici investisiyaları cəlb etmək, yeni iş yerləri yaratmaq, o cümlədən Azərbaycanın turizm və iqtisadi potensialının inkişafına töhfə verməkdir.

Həmçinin məlumat verilib ki, 15 ilə yaxın təcrübəsi olan "Baku City Residences" şirkəti yaşayış və kommersiya məqsədilə daşınmaz əmlakın inşası və satışı üzrə fəaliyyət göstərir. Şirkətin layihələrində müasir memarlıq, əlverişli yerləşmə və əhatəli infrastruktur birləşir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva sərgidə Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) stendi ilə də tanış olublar.

Diqqətə çatdırılıb ki, Agentlik ölkədə vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə yaradılıb. MİDA fəaliyyəti dövründə respublika üzrə ümumilikdə 20 layihəni icra edib.

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Əliyeva "Fortis Development" şirkətinin stendi ilə də tanış olublar.

Şirkət yaşayış və kommersiya obyektlərinin tikintisi ilə yanaşı, tarixi və memarlıq abidələrinin bərpası, bina fasadlarının yenilənməsi və ictimai məkanların abadlaşdırılması ilə məşğul olur və 10 ildən artıq təcrübəsi var.

Memarlıq, planlaşdırma və interyer dizaynı sahələrində fəaliyyət göstərən "Chapman Taylor" haqqında da bildirilib ki, Şuşa, Cəbrayıl, Xankəndi və Naxçıvan şəhərlərinin Baş planlarının müəllifi olan şirkət bu şəhərlərlə yanaşı, Bakı, Gəncə, Ağdam, Füzuli və Qusarda bir çox yaşayış və ictimai binaların layihələndirilməsini həyata keçirib.

Birləşmiş Ərəb Əmirliklərinin "Modon Holding"i də sərgidə iri ekspozisiya ilə təmsil olunur. Şirkət sərgidə Böyükşor gölü ərazisinin inkişaf planının konsepsiyasını təqdim edib.

"Bakı Ağ Şəhər" layihəsi dünyada müasir şəhərsalma konsepsiyasının ən parlaq nümunələrindən biridir. İcrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılan layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və "Ağıllı şəhər" prinsipləri əsasında hazırlanıb. Burada şəhərsalmanın ən son yenilikləri tətbiq olunub. Əvvəllər "Qara şəhər" kimi tanınan bu ərazi 150 ildən çox müddətdə neft sənayesi tullantıları ilə çirklənib. Azərbaycan Prezidentinin təşəbbüsü ilə isə burada dünya miqyasında nadir ekoloji layihə icra olunaraq müasir yaşayış massivi yaradılıb.

"Bakı Ağ Şəhər" layihəsinin əsas rəmzlərindən biri olan "Gilavar" kompleksi ictimai məkanları, əyləncə obyektlərini, iaşə müəssisələrini, yaxta klublarını və təxminən 185 metr hündürlüyündə 49 mərtəbəli yaşayış binasını birləşdirir.

Layihə "ADEC" şirkəti və "Bürc-Xəlifə" layihəsinin müəllifi, hündürmərtəbəli binaların memarlığı üzrə dünya lideri Amerikanın məşhur SOM bürosu ilə birgə hazırlanıb.

"Ağ şəhər", eyni zamanda, incəsənət və mədəniyyət həvəskarlarının da sevimli məkanına çevrilib. Belə ki, dünyanın tanınmış heykəltaraşları öz əsərlərinin burada quraşdırılmasında maraqlıdırlar. Bu xüsusda məşhur amerikalı heykəltaraş Robert Sammers tərəfindən yaradılan "Qarabağ atları" heykəltaraşlıq kompleksini, Zaman meydanında məşhur rəssam Konstantin Krik tərəfindən məhz "Bakı Ağ Şəhər" üçün hazırlanmış 7 saatdan ibarət "Seven Public Clocks" kompozisiyasını, məşhur heykəltaraş Cozef Klibanskinin "Buludların üstündə" adlı bürünc kompozisiyasını, müasir britaniyalı heykəltaraş Saymon Qadcenin "Nur axtarışında" heykəlini qeyd etmək olar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qarabağ Dirçəliş Fondunun stendinə də baxdılar.

Qeyd olunub ki, Fond işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasına maliyyə dəstəyi göstərir, investisiya cəlb edir, dövlət-özəl tərəfdaşlığını təşviq edir və maarifləndirmə layihələri həyata keçirir. Fondun sərgidə iştirakının məqsədi onun fəaliyyət istiqamətləri və işğaldan azad edilmiş ərazilərdə aparılan irimiqyaslı bərpa-quruculuq işləri barədə ictimaiyyətin məlumatlılığının artırılması, ianəçilik mədəniyyətinin təbliğidir.

"Qarabağın Dirçəlişi: Azərbaycan İntibahının Hekayəsi" innovativ kitab layihəsi də maraqla qarşılanır. Fondun sifarişi ilə hazırlanmış kitabda Qarabağ həqiqətləri və Azərbaycan Prezidentinin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri əks olunub.

Stenddə, həmçinin "Qarabağın inciləri" - Qarabağın tarixi-mədəni irsini, bərpa olunan abidələri və Zəfərdən sonra inşa edilmiş infrastruktur obyektlərini tanıdan rəmzi maarifləndirici oyun, "Qarabağ quiz" - Qarabağın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri və Vətən müharibəsi haqqında interaktiv viktorina və beynəlxalq ictimaiyyətin diqqətini mina təhlükəsinə yönəltmək məqsədilə Fondun sifarişi ilə hazırlanan "Ölümcül Miras" sənədli filmi barədə də məlumat verilir.

Sərgidə"Housing Development Corporation" (HDC), "Silk Development", "Luna Garden" və "Kristal" şirkəti də təmsil olunur.

Azərbaycançılıq ideologiyası:

Azərbaycan cəmiyyətində Qarabağdakı tarixi Zəfərdən və ərazi bütövlüyümüzün tam bərpa edilməsindən sonra həm müstəqillik dövründə keçdiyimiz çətin və məsuliyyətli inkişaf yolunun tarixi dərslərini ümumiləşdirmək və həm də yeni tarixi dövrün ümummilli vəzifəsini müəyyən etmək dövlət əhəmiyyətli bir məsələ kimi gündəmə gəlmişdir. Bu, ölkəmizdə uzaq və yaxın keçmişin tarixi dərslərindən düzgün nəticə çıxararaq daha işıqlı sabahlara doğru inamla addımlamaq və eyni zamanda, hansı hədəflərə doğru və necə getməli olduğumuzun strategiyasını qurmaq baxımından həlli zəruri olan aktual bir problemdir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 5 yanvar 2026-cı il tarixdə ölkəmizin yerli televiziya kanallarına verdiyi müsahibə zamanı yeni tarixi dövrün ümummilli vəzifəsini müəyyən etməyi müasir dövrün ən aktual məsələlərindən biri kimi irəli sürmüşdür. Deməli, ümummilli ideyanın formalaşdırılması müstəqil dövlətçiliyimizin yeni tarixi dövrünün inkişaf strategiyasının müəyyənləşdirilməsinin əsasını təşkil edir. Bu məsələ ətrafında aparılan müzakirələrdə, elmi-nəzəri təhlillərdə bir-birinə yaxın olan müxtəlif formullar, versiyalar, təkliflər nəzərə çarpdırılsa da, irəli sürülən formatların hamısında "Daha güclü Azərbaycan" anlayışı önə çıxmışdır.



”Daha güclü Azərbaycan”, yaxud ”Güclü Azərbaycan” isə bu vaxta qədərki möhkəm dayaqlar üzərində ucaldılan yeni Azərbaycanın qurulması ideyasını özündə əks etdirir. Bu isə öz növbəsində ”Daha güclü Azərbaycan” anlayışının nüvəsini tapmağı, hərəkətverici qüvvəsini müəyyən etməyi tələb edir. Fikrimizcə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 oktyabr 2026-cı il tarixdə Bakıda keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundakı tarixi nitqində irəli sürdüyü ölkəmizdəki bütün xalqları və etnik qrupları özündə birləşdirən azərbaycançılıq ideologiyasını dünya ictimaiyyətinin diqqət mərkəzinə çəkməsi həm qlobal mənada müstəqil dövlətlərin inkişafının mahiyyətinin aydınlaşdırılmasına, həm də Azərbaycanın müasir inkişaf modelinin dünya ictimaiyyətinə çatdırılmasına xidmət göstərir. Xüsusən, VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ”Parçalanmış dünyada ortaq gələcək naminə dialoq” mövzusuna həsr olunması dünyada siyasi-mənəvi parçalanmanın qarşısının alınmasını, aradan qaldırılması yollarının üzə çıxarılmasını tələb etdiyinə görə Prezident İlham Əliyevin hər bir dövlət üçün irəli sürdüyü vahid milli ideya ətrafında birləşmək formulu həm qlobal, həm də ümummilli əhəmiyyətə malik olan əsas format funksiyasını ifadə edir. Azərbaycan Prezidentinin nitqində ölkəmiz üçün vahid milli ideya olaraq ön mövqeyə çıxardığı azərbaycançılıq təlimi ilk növbədə müstəqil dövlətimizin ideya əsasını təşkil edən mükəmməl ideoloji sistem, geniş mənada isə hər bir ölkə üçün qəbul edilməli olan dövlət ideologiyası modeli kimi təqdim olunmuşdur. Dövlət başçısı səviyyəsində Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu iştirakçılarının nəzərinə çatdırılmışdır ki, ümummilli ideya və ya vahid dövlətçilik ideologiyası ətrafında birliyin və həmrəyliyin təmin edilməsi güclü dövlət qurmağın, ölkədə möhkəm daxili birlik və harmoniya yaratmağın xalqları daha işıqlı gələcəyə aparmağın Azərbaycanın təcrübəsində sınaqlardan çıxmış siyasi düsturudur. Beynəlxalq aləmdə siyasi-irqi-mədəni ayrıseçkilərin dərin qarşıdurmalara, hətta hərbi münaqişələrə gətirib çıxardığı bir zamanda ölkələrin və xalqların vahid dövlətçilik ideologiyası ətrafında birləşmək təliminin Prezident İlham Əliyev tərəfindən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda təmsil olunan yüzdən çox ölkənin 541 iştirakçısının diqqətinə çatdırılması geniş mənada parçalanmaqda davam edən dünyada Birliyə və Həmrəyliyə çağırışın əməli ifadəsidir. Çünki, Azərbaycançılıq ideologiyası anlayışının mahiyyət etibarilə ölkə daxilindəki bütün etnik qrupları, azsaylı xalqları, dinlərarası və mədəniyyətlərarası münasibətləri əks etdirməsi bu dövlətçilik prinsiplərinin Birlik, Bərabərlik və Həmrəylik kimi zəruri amillərin sinonimi̇nə çevrilməsini şərtləndirir. Bu baxımdan Prezident İlham Əliyevin müstəqil dövlətimizin milli ideologiyası olan azərbaycançılığın ölkəmizdəki təcrübəsi haqqında səsləndirdiyi aşağıdakı fikirlər sadəcə Azərbaycanın nailiyyətlərini təbliğ etməkdən çox, sınaqlardan çıxmış vahid ideologiya ətrafında birləşmək təliminin mahiyyətinin açıqlanmasına və əhəmiyyətinin əməli şərhinə işıq salır: ”Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq nəinki bərabər hüquqları var, onlar həmçinin bir ailə kimi yaşayırlar. Biz həmrəylik, qarşılıqlı hörmət və anlaşmanın ən yüksək səviyyəsini həqiqətən hiss edirik. Hamımız milli ideya ətrafında birləşirik. Onlardan biri Azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir”.

Bu, parçalanmış dünyada Birlik və Həmrəyliyə çağırışın İlham Əliyev tezisləridir.

Bu, - dünyanı parçalanmaqdan xilas etməyin Azərbaycan təcrübəsidir.

Bu, - Azərbaycançılıq ideologiyası anlayışının mahiyyətindəki vahid ideal ətrafında birləşmək ideyasının dövlət səviyyəsində bəyan olunmuş təqdimatıdır.

Bu, - çoxmillətli mədəniyyətlərdə dialoqun və harmoniyanın həyata keçirilməsinin Azərbaycan modelidir.

Bu, - əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil dövlətçilik təliminin - Azərbaycançılıq ideologiyasının yeni tarixi şəraitdəki missiyasını, reallıqlarını və inkişafını ifadə edən İlham Əliyev prinsipləridir.

=o=

Məlum olduğu kimi, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi hakimiyyətinin Sovetlər İttifaqı dövrünü əhatə edən birinci mərhələsində Sovet Azərbaycanının rəhbəri kimi ölkənin sabit və dinamik inkişafını təmin etmək üçün millətlərarası münasibətlərin tənzimlənməsini zəruri faktorlardan biri hesab etmiş və bu prinsipi başçılıq etdiyi respublikada həyata keçirməklə Həmrəyliyin və Ədalətin zəfər çaldığı mükəmməl bir cəmiyyət qurmağın nümunəsini göstərmişdir. Dünyanın siyasət nəhəngləri Heydər Əliyevin bu istiqamətdəki düşünülmüş və məqsədyönlü fəaliyyətini millətlərarası münasibətlərin tənzimlənməsi üzrə ali səviyyəli qrossmeysterlik kimi qiymətləndirmişlər. Bu dəyərləndirmədə ilk növbədə görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərlik etdiyi çoxmillətli etnik tərkibə malik olan Azərbaycan Sovet Respublikasında millətlərarası münasibətlərin tənzimlənməsi istiqamətində atılmış addımların yaratdığı müsbət nəticələr əsas amilə çevrilmişdir. Eyni zamanda, Ulu Öndərin Avropanın sosialist ölkələrində, SSRİ-nin tərkib hissəsi olan müttəfiq respublikalarda millətlərarası münasibətlər zəminində baş vermiş münaqişələrin aradan qaldırılması üçün gündəmə gətirdiyi siyasi proqnozlar və atdığı addımlar da dünya analitiklərinin təhlilləri üçün əsas olmuşdur. Məlum olduğu kimi, Sovetlər İttifaqı adlandırılmasına baxmayaraq, dəmir barmaqlıqlar arasında fəaliyyət göstərən bir dövlətdə SSRİ Nazirlər Soveti Sədrinin Birinci Müavini, Siyasi Büronun üzvü miqyasında təmsil olunan Heydər Əliyev Avropa sosialist blokuna daxil olan Çexoslovakiyada və Macarıstanda, müttəfiq respublikalardan Qazaxıstanda və Özbəkistanda millətlərarası münasibətlər zəminində baş verə biləcək münaqişələrin proqnozlaşdırılmasında böyük uzaqgörənlik nümayiş etdirmiş, atdığı qətiyyətli və düşünülmüş addımlarla İttifaq dövlətini xilas etmişdir.

Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə Heydər Əliyev SSRİnin beynəlmiləlçilik ideologiyasının yaratdığı görünən və görünməyən qadağalara və məhdudiyyətlərə baxmayaraq, Kreml hakimiyyətini şübhələndirmədən respublikamızda azərbaycançılıq sahəsində mühüm addımlar atmışdır. Uzaqgörən dahi şəxsiyyətin sovet vətənpərvərliyi adı ilə elm, ədəbiyyat, mədəniyyət sahəsində həyata keçirdiyi genişmiqyaslı tədbirlər xalqımızın milli-mənəvi təkamülündə mühüm rol oynamışdır. Bu mənada Heydər Əliyevin 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsinə nail olması dövrünə görə əsl liderlik hadisəsidir. Azərbaycanda və İttifaq miqyasında Azərbaycanın görkəmli şair və yazıçılarının yubileylərinin keçirilməsi, elm, ədəbiyyat və incəsənət üzrə Dövlət mükafatlarının təsis edilməsi, çoxsaylı muzeylərin, regional teatrların, kitabxanaların açılması kimi hadisələr respublikada azərbaycançı bir siyasi-ideoloji mühitin formalaşdırılmasına şərait yaratmışdır. Azərbaycan Respublikası rəhbəri ölkəmizin azərbaycançılıq uğrunda mübarizə aparan elm, ədəbiyyat və mədəniyyət xadimlərinin ”millətçi” damğası vurularaq ictimai-mədəni mühitdən uzalqlaşdırılmasına yol verməmişdir. Akademik Ziya Bünyadov, müxbir üzvlər Abbas Zamanov, Xudu Məmmədov, xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk və başqaları görkəmli dövlət xadimi Heydər Əliyevin simasında özlərinin əsil xilaskarını tapmış, fəaliyyətlərini davam etdirmək imkanı qazanmışlar. Bütün bunlara görə, Sovet Azərbaycanında ümummilli ideyaların və ya milli ideologiyanın, azərbaycançılıq məfkurəsinin aşılanması baxımından keçmiş müttəfiq respublikalarından fərqli bir siyasət həyata keçirilmişdir. Məhz məsələnin bu cəhəti ölkəmiz dövlət müstəqilliyi qazandıqda SSRİ-dən qopmuş müstəqil dövlətlər hələ özlərinə yeni dövlətçilik ideologiyası formatı axtarışında olarkən Azərbaycan Respublikasının azərbaycançılığı dərhal ümummilli ideologiya kimi qəbul etməsində öz əksini tapmışdır. Bu cəhətdən müstəqil Azərbaycan Respublikası dövlət müstəqilliyi qazanmış digər gənc dövlətləri qabaqlamışdır.

Bundan başqa, Dünya Azərbaycanlıları anlayışının meydana çıxması da Heydər Əliyevin adı ilə bağlı olan mühüm azərbaycançılıq hadisəsidir. Uzaqgörən dövlət rəhbəri hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olaraq fəaliyyət göstərdiyi dövrdə - 16 dekabr 1991-ci ildə ”Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü haqqında” tarixi bir Sərəncama imza atmışdır. Dünya Azərbaycanlılarının Birinci Qurultayının çağırılması və keçirilməsi də, Dünya Azərbay-

Heydər Əliyevdən - İlham Əliyevə

canlıları ilə əlaqə üzrə Dövlət Komitəsinin yaradılması da görkəmli dövlət xadimi Heydər Əliyevin adı və fəaliyyəti ilə əlaqədardır. Dövlət dilimizin geniş müzakirələrdən sonra ölkə reallığını ifadə edərək Azərbaycan dili adlandırılması da Heydər Əliyevin mühüm tarixi xidmətlərindən biridir.

Heydər Əliyev 17 noyabr 1990-cı il tarixdə, yəni hələ SSRİ dağılmamış Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərini çıxartmağa müvəffəq ola bilmişdir. Bundan başqa, həmin tarixi iclasda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını yenicə qurulmuş gənc respublikanın bayrağı kimi qəbul etdirməyə nail olması da Heydər Əliyevin azərbaycançılıq idealına xidmət baxımından əfsanələri reallığa çevirmək məharətinin əyani sübutudur.

Göründüyü kimi, Heydər Əliyev azərbaycançılığı ölkəmizdə sovet vətənpərvərliyi ideyasından müstəqil dövlətin ümummilli ideologiyası miqyasına çıxarmış görkəmli dövlət xadimidir.

=o=

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin azərbaycançılıq təliminin əsasında Ulu Öndər Heydər Əliyevin çətin şəraitdə sovet hakimiyyəti illərindən formalaşdırdığı millətlərarası münasibətlərin tənzimlənməsi və sovet vətənpərvərliyi adı ilə həyata keçirdiyi ümummilli siyasət dayanır. Bununla belə, hər hansı siyasi təlim kimi, azərbaycançılıq ideyası da XX əsrdə dünyada və ölkədə baş verən ictimai-siyasi hadisələr və proseslər əsasında dəyişmiş və yeniləşmişdir. Məsələn, keçmiş SSRİ məkanında ateizmin dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil etdiyi dövrdə dini dözümlükdən - tolerantlıqdan danışmaq mümkün olan iş deyildi. Həmçinin SSRİ-nin vahid sovet xalqı ideyası ilə xalqları əridib sıradan çıxarmaq siyasəti yürütdüyü bir şəraitdə azsaylı xalqlar anlayışını gündəmə gətirmək ağlasığmaz bir gediş hesab oluna bilər və respublikaya mənfi münasibət doğura bilərdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətçiliyin yaratdığı yeni imkanları dəyərləndirərək, ölkəmizin tarixində ilk dəfə olaraq multikulturalizm və tolerantlığı dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Azərbaycan Respublikası multikulturalizm və tolerantlıq baxımından nəinki müstəqillik qazanmış yeni dövlətlər, hətta Avropada və Asiyada müstəqilliyinin az qala çoxəsrlik tarixi olan qocaman dövlətlər üçün də əsl nümunə olmuşdur. VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Prezident İlham Əliyevin tarixi nitqində də dövlət rəhbərimiz bir daha dönmədən həyata keçirilməkdə olan uğurlu multikulturalizm və tolerantlıq siyasətindən ölkəmizdə yaşayan müxtəlif xalqların və etnik qrupların bərabərhüquqlu vahid ailə kimi yaşamaqlarının əsası kimi bəhs etmişdir: "Əlbəttə, mədəniyyətlərarası və dinlərarası münasibətlərə aid məsələlər gündəliyimizdə birinci yeri tutur... Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlər boyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk. Bütün etnik qurumların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq, nəinki bərabər hüquqları var, onlar həmçinin bir ailə kimi yaşayırlar Əgər bizdə - Azərbaycanda yaşayan bütün xalqlar arasında qarşılıqlı hörmət, əhatəliliyin real platforması olmasaydı, biz heç zaman uğur qazana bilməzdik. Çox fərəhlənirik ki, həmin dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik".

Prezident İlham Əliyevin müəyyən etdiyi multikulturalizm və tolerantlıq xətti xalqları vahid milli ideya əsasında birləşdirən azərbaycançılıq təliminin üzvü tərkib hissələridir. Hazırda Azərbaycan Respublikasında yaşayan azsaylı xalqların, etnik qrupların birlik və bərabərlik içərisində yaşayıb fəaliyyət göstərməsi vahid ümumi ideala - Azərbaycançılığa sədaqət nümunəsidir. Azərbaycan xalqı üçün ən taleyüklü məsələ olan Qarabağ ərazisinin Ermənistanın işğalından azad edilməsi uğrundakı İkinci Qarabağ müharibəsində köklü azərbaycanlılarla ölkəmizdəki bütün azsaylı xalqların nümayəndələrinin birlikdə döyüşlərdə iştirak etmələri, şəhid olmaları müstəqil Azərbaycan dövlətinin multikulturalizm və tolerantlıq siyasətinin xalqları vahid ümummilli ideal - Azərbaycançılıq ideologiyası ətrafında birləşmək prinsipinə hansı səviyyədə xidmət etdiyini əyani şəkildə təsəvvür etməyə tam əsas verir.

Ərazi bütövlüyü anlayışı da Prezident İlham Əliyev üçün Azərbaycançılıq ideologiyasının ana xətlərindən birini təşkil edir. Məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin Dəmir Yumruğu ilə 2020-ci ildə Qarabağda qazanılan tarixi Zəfərin və 2023-cü ildə həyata keçirilən birgünlük uğurlu hərbi əməliyyatın nəticəsində son iki yüz ildə ilk dəfə olaraq Azərbaycanın coğrafi hüdudları daxilində ölkəmiz ərazi bütövlüyünü əldə edə bilmişdir. Beləliklə, İlham Əliyevin Dəmir Yumruğu ilə ölkəmizin bütövlüyü təmin edilmişdir. Azərbaycanın üçrəngli bayrağı ilk dəfə olaraq respublikamızın bütün ərazisində dalğalanmışdır. Nəticədə Azərbaycan Respublikasının müstəqil dövlət kimi toxunulmazlığına və tam suverenliyinə nail olunmuşdur. Ona görə də Prezident İlham Əliyev haqlı olaraq ərazi bütövlüyü və suverenliyi azərbaycançılığın əsl mahiyyətini açıb göstərən ən mühüm amillərdən biri kimi qiymətləndirir. VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda da Prezident İlham Əliyev ərazi bütövlüyü və suverenlik anlayışlarından da müstəqil Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən azərbaycançılığın ana maddələri kimi bəhs etmişdir: "Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman biz öz taleyimizin sahibinə çevrildik. Biz öz taleyimizi özümüz həll etməyə başladıq və sonra bütün dünyaya nəyə qadir olduğumuzu göstərdik. ...Əsas məqsədimiz ərazi bütövlüyümüzün bərpası, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsi olub. Biz əraziləri işğal altında olan ölkə kimi, ən elementar insan hüquqları daim pozulan xalq kimi əbədi yaşamalı deyildik... Biz özümüzü müdafiə etdik... Biz 30 il Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etdik. Biz ədaləti bərpa etdik. Biz öz ləyaqətimizi və beynəlxalq hüququ bərpa etdik. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan qoşunlarının ərazilərimizdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən, lakin 30 il kağız üzərində qalan qətnamələri təkbaşına həll etdik".

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda möhtərəm cənab Prezidentin nitqində 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi və 2023-cü ildə keçirilmiş antiterror əməliyyatı hadisələri ilə Ermənistanın işğalına son qoyulması böyük qürur hissi ilə xalqımızın və dövlətimizin inkişafında yeni mərhələ açan tarixi dövr kimi qiymətləndirilmişdir. Bu mənada Prezident İlham Əliyevin səsləndirdiyi "Biz beynəlxalq hüququn normalarına uyğun olaraq ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etdik" sözləri Azərbaycan dövlətinin həyatında başlanan yeni ərazi bütövlüyü və suverenlik mərhələsinin elanıdır. Bu, həm də o deməkdir ki, azərbaycançılıq idealı da ərazi bütövlüyü və suverenlik olmadan özünün böyük və geniş mənasını tam ifadə edə bilməz.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünü xalqımızın təkbaşına mübarizə ilə, ədalətli müharibə ilə həll etdiyini bəyan etməsi azərbaycançılıq üçün zəruri olan milli qürur və milli iftixar hisslərinin də diqqət mərkəzinə çəkilməsi deməkdir. Milli qürur və milli iftixar hissi sosializm cəmiyyəti dövründəki sovet vətənpərvərliyi tərbiyəsinin sosializm ideologiyasının buxovlarından azad edilərək daha da dərinləşdirilmiş və ümummilli ideala xidmətə istiqamətləndirilmiş ifadəsi deməkdir. Azərbaycançılıq xalq üçün ideal ifadə edən anlayış olduğu üçün bu siyasi-ideoloji təlimi milli qürur, vətənpərvərlik hissləri olmadan təsəvvür etmək mümkün deyildir. Bu baxımdan həqiqətən də milli qürur və vətənpərvərlik azərbaycançılıq ideyasının əsas dayaqlarını təşkil edir. Bura Prezident İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda bir neçə məqamda nəzərə çatdırdığı ana dili - dövlət dili məsələsini, adət-ənənələrimizdə bağlı səslənən tezisləri də əlavə etməklə azərbaycançılığın dövlət başçımızın baxışlarındakı geniş əhatə dairəsini aydın şəkildə görmək mümkündür. Bu baxımdan yanaşdıqda Azərbaycan Respublikasının Prezidentini Ümumdünya Mədəniyyətlərarası Qlobal Forumunda böyük qürurla dünya ictimaiyyətinə bəyan etdiyi aşağıdakı sözlər Azərbaycançılıq ideyasının və ümummilli ideyanın əsas kodlarını ümumiləşdirilmiş şəkildə nəzərə çatdıran əsas mətləblər kimi səslənir. "Son iki əsrdə biz müstəqil olmamışıq. Bununla belə, yaşadığımız sistemdən asılı olmayaraq dəyərlərimizi, dilimizi həyat tərzimizi qoruyub saxlaya bilmişik... Yaşadığımız sistemlərin heç biri bizim milli hisslərimizi, əzmimizi poza bilməmişdir. Ona görə də Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman biz öz taleyimizin sahibinə çevrildik".

=o=

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin azərbaycançılıq ideologiyası konsepsiyası geniş anlayış olub, ölkəmiz, xalqımız və müstəqil dövlətimizlə əlaqədar bütün əsas dəyərləri və ənənələri özündə birləşdirən bütöv və sistemli bir təlimdir. Bu, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin möhkəm siyasi-mənəvi dayaqlarını yaratdığı azərbaycançılıq ideologiyasının yeni tarixi dövrün meydana çıxardığı yeni dəyərlərlə genişləndirilmiş və zənginləşdirilmiş tam, bütöv bir sistemdir. Bu, XXI əsrin yeni tipli azərbaycançılıq hadisəsidir. Nəhayət, bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gərgin mübarizələrlə, yorulmaz fəaliyyətlə, danılmaz inkişafla azərbaycançılıq təliminə qazandırdığı yeni keyfiyyətlərdir. Yeni tarixi dövrdə Azərbaycançılıq ideologiyası anlayışına daxil olmuş multikulturalizm və tolerantlıq, ərazi bütövlüyü və suverenlik, milli qürur və milli iftixar hissləri müstəqil Azərbaycan dövlətinin ümummilli ideologiyasına daxil olmuş yeni dəyərlərdir. Bu mənada XXI əsrin Azərbaycançılıq anlayışı özünəqədərki Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi, ana dili - dövlət dili kimi dəyərlərlə yanaşı, həm də yeni tarixi dövrün doğurduğu reallıqları təcəssüm etdirən mükəmməl bir siyasi-ideoloji təlimdir. Azərbaycançılıq ideologiyasının məzmunca yeniləşməsi, hüdudlarının genişləndirilməsi xalqımızın və ölkəmizin ideya-mənəvi inkişafının barometridir. Azərbaycançılıq baxımından XX əsrin yetmişinci illərindən başlayaraq bizim günlərə qədər sovet vətənpərvərliyindən - Azərbaycançılıq ideayasına və inkişaf etmiş müstəqil Azərbaycan dövlətinin ümummilli ideologiyasınadək qət edilən çətin, lakin şərəfli yol Azərbaycan xalqının milli oyanış və dirçəlişdən milli istiqlala və suverenliyə qədər keçdiyi şanlı mübarizə və təkamül proseslərinin ibrətamiz nümunəsidir.

Ümumdünya Mədəniyyətlərarası Qlobal Dialoq Forumu azərbaycançılıq ideologiyasının beynəlxalq miqyasda təqdimatı üçün ən əlverişli platforma idi. Prezident İlham Əliyev bu beynəlxalq miqyaslı xitabət kürsüsünün imkanlarından məharətlə istifadə edərək, müstəqil Azərbaycan dövlətinin ümummilli ideologiyasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ümumiyyətlə, Azərbaycan - Vətən və ideal, azərbaycançılıq isə ümummilli ideologiya mənalarını ifadə edir. XIX əsrin axırlarında "Azərbaycan" sözünün mətbuata çıxması ilə başlanan Azərbaycançılıq hərəkatı XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin "Haradır Azərbaycan" sualına cavab tapmaq yolunda davam edərək konkret məna kəsb etmişdir. Cəlil Məmmədquluzadənin məşhur "Anamın kitabı" dramı Azərbaycan xalqının tale kitabı kimi meydana çıxmış, Azərbaycan idealını meydana qoymuşdur. Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeiri Azərbaycançılıq ideyasını tərənnüm edərək yaşadan ədəbi dəyərlərdən biri olmuşdur. Azərbaycan xalqının çoxəsrlik tarixində Azərbaycan idealını və azərbaycançılıq ideyasını ilk dəfə görkəmli dövlət xadimi Heydər Əliyev dövlətçilik ideologiyasına çevirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycançılıq ideologiyasını yeni tarixi dövrün reallıqları ilə zənginləşdirərək tam suverenlik mərhələsinə çatdırmışdır. VII Mədəniyyətlərarası Dialoq Forumunda Prezident İlham Əliyev tərəfindən təqdim edilən Azərbaycançılıq ideologiyası müstəqil dövlətçilik ideologiyamızın ölkəmizin ərazi bütövlüyü və suverenliyi epoxasındakı təntənəsidir.

XXI əsrin ən görkəmli liderlərindən biri olan Prezident İlham Əliyev Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki tarixi nitqi ilə "Parçalanmış dünyada ortaq gələcək naminə dialoq" çağırışına Azərbaycan təcrübəsi ilə örnək göstərmiş və istiqamət vermişdir. Bu nitq Qalib ölkənin Qalib liderinin qurub-yaratdığı, inkişaf etdirib ucaltdığı, ərazi bütövlüyünü və suverenliyini tam təmin etdiyi müstəqil Azərbaycan Respublikası haqqında qürur dolu möhtəşəm bir təqdimatdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin timsalında ana xətlərini, əsas konturlarını göstərdiyi azərbaycançılıq ideologiyasının əhatə etdiyi vahid ümummilli ideal ətrafında birləşmək ideyası qlobal xarakterə malik olan ümumdünya modelidir. Deməli, Azərbaycançılığın İlham Əliyev formatı bu dövlətçilik ideologiyasının bütün məzmunu ilə yanaşı, həm də digər xalqların dövlətçilik ideologiyası formalaşdırmaq baxımından mükəmməl bir standartıdır.

Vahid ümummilli ideal ətrafında birləşmək çağırışı əslində parçalanmış dünyanı xilas etməyin İlham Əliyev modelidir. Bu mənada Azərbaycançılıq ideologiyası müstəqil Azərbaycan dövlətinin ümummilli ideologiyası olmaqla bərabər, həm də müstəqil dövlətlərin vahid ideal ətrafındakı birliyinin bir ölkənin simasında əks etdirilən düsturudur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümumdünya miqyasında vahid ideal ətrafında birləşmək ideyasının müəllifidir. Vahid amal, yaxud ümummilli ideya ətrafında birləşmək anlayışına konkret bir dövlət miqyasında baxsaq, bu, Azərbaycançılıq ideologiyasının timsalında mükəmməl bir dövlətçilik ideologiyası standartıdır. Əgər məsələyə dünyada sülh və təhlükəsizliyin təmin edilməsi və daha da möhkəmləndirilməsi masştabında yanaşsaq, vahid amal ətrafında birləşmək ideyası parçalanmış dünyanın xilas yolunun kompasıdır. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz ölkəsində ərazi bütövlüyünü və suverenliyi təmin etmiş, ümummilli ideallar və müstəqil dövlətçilik prinsipləri əsasında dövlət ideologiyasını möhkəmləndirmiş qüdrətli bir liderin parçalanmış dünyanı bütövlüyə, birliyə, sülhə, əməkdaşlığa çağırışlarının canlı və əyani əks-sədasıdır.

İsa HƏBİBBƏYLİ
AMEA-nın prezidenti, akademik

AMEA-nın Ümumi yığıncağı Ramiz Mehdiyevin akademiya üzvlüyündən çıxarılmasını təsdiq edib



Oktyabrın 30-da Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib.

Ümumi yığıncaqda AMEA Rəyasət Heyətinin 28 oktyabr 2026-cı il tarixli qərarı əsasında Ramiz Mehdiyevin Akademiyanın həqiqi üzvlüyündən çıxarılması məsələsinə baxılıb.

Məlumat verilib ki, Milli Elmlər Akademiyasının 23 noyabr 2023-cü il tarixli Ümumi Yığıncağında təsdiq olunmuş Azərbaycan Milli Elmlər Akademiyası üzvlərinin seçkisi, hüquqları və vəzifələrinə dair Əsasnamənin 3.6.-cı bəndinə əsasən Akademiyanın üzvü ölkənin və Akademiyanın adına ləkə gətirən hərəkətlərə yol verdikdə, vəzifələrini yerinə yetirmədikdə onun AMEA üzvlüyündən çıxarılması məsələsi AMEA Rəyasət Heyətinin iclasında müzakirə edilərək, müvafiq qərar qəbul edilməklə AMEA-nın Ümumi Yığıncağında təsdiq edilmək üçün təqdim olunur. Buna əsasən Ramiz Mehdiyevin Akademiyanın həqiqi üzvlüyündən çıxarılması ilə bağlı AMEA Rəyasət Heyətinin 28 oktyabr 2026-cı il tarixli qərarı AMEA-nın Ümumi Yığıncağında təsdiq edilmək üçün təqdim olunub.

Ümumi yığıncaqda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli giriş sözü ilə çıxış edərək bildirib ki, 2025-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti Ramiz Mehdiyevi Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması), 274-cü (dövlətə xəyanət) və 278.1-ci (hakimiyyəti zorla ələ keçirməyə və ya dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddələri ilə ittiham edib. AMEA rəhbəri diqqətə çatdırıb ki, ötən bir il ərzində irəli sürülən ittihamlar istintaq tərəfindən təsdiq olunub. Bakı Ağır Cinayətlər Məhkəməsi Ramiz Mehdiyevin törətdiyi cinayət əməllərinə görə 14 il həbs cəzasına məhkum edilməsi haqqında qərar qəbul edib. Ölkənin adına ləkə gətirən cinayət hərəkətlərinə yol verdiyi və Nizamnamə tələblərini yerinə yetirmədiyinə görə Ramiz Mehdiyevin Milli Elmlər Akademiyasının həqiqi üzvü olaraq qalması mümkün deyildir.

Sonra AMEA üzvlərinin çıxışları dinlənilib. Akademik Yaqub Mahmudov, akademik Dilqəm Tağıyev, akademik Möhsün Nağısoylu, müxbir üzv Misir Mərdanov, müxbir üzv Qurban Yetirmişli və başqaları çıxış edərək müstəqil dövlətimizə xəyanət edən, konstitusiya quruluşunun dəyişdirilməsinə cəhd göstərən, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək qeyri-qanuni sərvətlər əldə edən Ramiz Mehdiyevin alim adına yaraşmayan cinayət əməllərini qətiyyətlə pisləyib, məhkəmə ilə sübut olunmuş həmin hərəkətlərin yolverilməz olduğunu nəzərə çatdırıb, ona akademiya üzvləri arasında yer olmadığını deyiblər. Çıxışlarda qeyd edilib ki, dövlət idarəçiliyində uzun bir yol keçmiş, dövlətin yaratdığı imkanlardan sui-istifadə etmiş Ramiz Mehdiyevin dövlətə xəyanət yolunu tutması bağışlanmazdır.

Eyni zamanda, çıxışlarda Ramiz Mehdiyevin Akademiyanın prezidenti vəzifəsində işlədiyi qısa müddətin də əsassız yoxlamalar, intriqalar və məhkəmə çəkişləri kimi yadda qaldığı qeyd edilib.

Çıxışlardan sonra gizli səsvermə keçirilib. Səsvermənin nəticələrinə əsasən, AMEA-nın Ümumi yığıncağı Ramiz Mehdiyevin Akademiyanın həqiqi üzvlüyündən çıxarılması ilə bağlı AMEA Rəyasət Heyətinin 28 oktyabr 2026-cı il tarixli qərarını təsdiq edib.

Bununla da Ramiz Mehdiyev Azərbaycan Milli Elmlər Akademiyasının üzvlüyündən xaric olunub.



İsa Həbibbəyli:
"İrəvan Qazılığının tarixi" kitabı azərbaycançılıq ideologiyasına mühüm töhfədir



”İrəvan Qazılığının tarixi” kitabı İrəvan bölgəsinin tarixi keçmişinin öyrənilməsi, Azərbaycan xalqının dini-mədəni irsinin araşdırılması və azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Bu fikirləri Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) hazırladığı ”İrəvan Qazılığının tarixi” kitabının Qərbi Azərbaycan İcması ilə birgə təqdimat mərasimində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli deyib.

Onun sözlərinə görə, kitabda yer alan tarixi məlumatlar və arxiv sənədləri İrəvan bölgəsinin tarixi keçmişinin, burada qazılıq institutunun fəaliyyətinin və inkişaf mərhələlərinin araşdırılması baxımından xüsusi dəyərə malikdir. Bu materiallar bölgənin Azərbaycan xalqının tarixi və mədəni irsi ilə bağlılığının öyrənilməsinə mühüm töhfə verir.

”Əsər İrəvan vilayətinin tarixinin öyrənilməsi baxımından da əhəmiyyətli elmi mənbədir. Kitab azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsinə, Azərbaycanın tarixi ərazilərinin dini və mədəni irsinin daha dərindən araşdırılmasına xidmət edir”, - deyə akademik əlavə edib.

Dünya şöhrətli fotoqraf Reza Deqatinin kitablarının təqdimatı



AMEA Rəyasət Heyətində dünya şöhrətli fotoqraf Reza Deqatinin ”Odun zərifliyi” və ”Günahsızların qətliamı” adlı kitablarının təqdimatı keçirilib.

Tədbiri giriş nitqi ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq Reza Deqatinin Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətindəki xidmətlərini xüsusi vurğulayıb. Bildirib ki, məşhur fotoqraf 1990-cı illərdən etibarən Qarabağ müharibəsinin faciələrini, 20 yanvar hadisələrini, o cümlədən Xocalı soyqırımının şahidlərini çəkməyə müvəffəq olub. Bundan başqa, müharibə gedən Şuşa, Zəngilan, Cəbrayıl rayonlarında baş verən hadisələri fotoyaddaşa köçürüb. Birinci Qarabağ müharibəsindən sonra Rza Deqati qaçqın və məcburi köçkünlərlə görüşərək, onların şəkillərini çəkib. O, xalqımızın ağrı-acılarını və insan talelərini fotoşəkilləri vasitəsilə əbədiləşdirərək dünya ictimaiyyətinə təqdim edib.

”Reza Deqatinin əsərləri yalnız sənət nümunələri deyil, həm də Azərbaycanın yaxın tarixini əks etdirən mühüm sənədli mənbələrdir”, - deyən akademik İsa Həbibbəyli qeyd edib ki, dünya şöhrətli fotoqraf müxtəlif ölkələrdə təşkil olunan sərgilər vasitəsilə Qarabağ həqiqətlərinin dünyada tanıdılmasına, Azərbaycanın tarixi, mədəniyyəti, təbiəti və milli dəyərlərinin beynəlxalq miqyasda təbliğinə mühüm töhfələr verib. Fotoqrafın Xocalı faciəsi zamanı həyatını təhlükəyə ataraq baş verən hadisələri lentə almasını xüsusi vurğulayan akademik İsa Həbibbəyli onun müxtəlif təzyiqlərə baxmayaraq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq missiyasına sadiq qaldığını bildirib. AMEA prezidenti bildirib ki, Reza Deqatinin obyektiv fotoşəkilləri erməni təbliğatının yaydığı saxta məlumatların ifşasında və münaqişənin gerçək mənzərəsinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm əhəmiyyət daşıyır.

Akademik İsa Həbibbəyli məşhur fotoqrafın yaradıcılığında Qarabağın keçmişi ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərinin, Böyük Qayıdış prosesinin də əks olunduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin Azərbaycanın öz tarixi torpaqlarını yenidən abadlaşdırmaq və çiçəkləndirmək qüdrətini nümayiş etdirdiyini bildirib. O, həmçinin Reza Deqatinin Heydər Əliyev Fondu ilə əməkdaşlığının, Fondun həyata keçirdiyi layihələrdə və beynəlxalq tədbirlərdə iştirakının Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından önəmini vurğulayıb.



AMEA rəhbəri təqdim olunan ”Odun zərifliyi” və ”Günahsızların qətliamı” kitablarının əhəmiyyətinə toxunaraq onların gələcək elmi araşdırmalar üçün də dəyərli mənbə olduğunu qeyd edib. Bildirib ki, Reza Deqatinin fotoşəkilləri tarixçilər, ədəbiyyatşünaslar, etnoqraflar və filosoflar üçün mühüm tədqiqat materialı olmaqla yanaşı, tarixi hadisələrin sənədləşdirilmiş sübutu kimi böyük önəm daşıyır. O, kitab nüsxələrinin Akademiyaya hədiyyə edilməsini yüksək qiymətləndirib, bu nəşrlərin elmi ictimaiyyət üçün faydalı olacağına əminliyini ifadə edib.

Akademik İsa Həbibbəyli AMEA-da keçirilən görüşü gələcək əməkdaşlıq baxımından mühüm başlanğıc kimi dəyərləndirib. AMEA prezidenti dünya şöhrətli fotoqrafın Azərbaycanla mənəvi bağlılığını, ölkəmizin haqq səsinin dünyaya çatdırılması naminə göstərdiyi fədakarlığı yüksək qiymətləndirərək ona uzun illik fəaliyyətinə, Azərbaycan reallıqlarının beynəlxalq miqyasda tanıdılmasına və milli yaddaşın qorunmasına verdiyi töhfələrə görə minnətdarlığını bildirib.

Sonra Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında göstərdiyi xidmətlərə görə Reza Deqati AMEA-nın döş nişanı ilə təltif olunub.

Tədbirdə, həmçinin AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev və AMEA-nın müxbir üzvü Sevda Məmmədəliyeva çıxış edərək Reza Deqatinin sənətkarlığından, Azərbaycan reallıqlarının dünyada tanıdılması istiqamətində nümayiş etdirdiyi prinsipial mövqedən, çətin və riskli məqamlarda belə öz missiyasına sadiqliyindən bəhs ediblər. Qeyd olunub ki, Reza Deqatinin sərgiləri geniş ictimai maraq doğurur, fotoəsərləri isə mühüm ictimai və mənəvi mesajlar daşıyır. Çıxışçılar dünyaşöhrətli fotoqrafa gələcək fəaliyyətində yeni yaradıcılıq uğurları arzulayıblar.

Daha sonra dünyaşöhrətli fotoqraf Reza Deqatinin peşəkar fəaliyyətini əks etdirən videosujet nümayiş olunub.

Sonda çıxış edən Reza Deqati uzun illərə söykənən fotojurnalist fəaliyyəti, dünyanın müxtəlif bölgələrində şahidi olduğu hadisələr və fotoqrafiyanın tarixi həqiqətlərin qorunmasındakı rolu barədə fikirlərini bölüşüb.

O, dünyanın müxtəlif ölkələrində, xüsusilə münaqişə və müharibə bölgələrində apardığı çəkilişlərdən, qarşılaşdığı insan talelərindən və müşahidələrindən bəhs edib. Reza Deqati fotoşəkillərin yalnız müəyyən anı əks etdirmədiyini, eyni zamanda həmin anın arxasında dayanan insan hekayələrini, yaşanan ağrı-acıları və tarixi reallıqları gələcək nəsillərə çatdıran mühüm vasitə olduğunu diqqətə çatdırıb.

AMEA prezidenti İsa Həbibbəyli Gürcüstan EA-nın yubileyində çıxış edib

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Gürcüstan Milli Elmlər Akademiyasının 85 illik yubileyi münasibətilə Tbilisi şəhərində keçirilmiş tədbirdə iştirak və çıxış edib.

Yubiley tədbirində Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Prezident Mixeil Kavelaşvili, Parlamentin Sədri Şalva Papuaşvili və təhsil, elm və gənclər naziri Qivi Mikanadze çıxış edərək Milli Elmlər Akademiyasını 85 illik yubileyi münasibətilə təbrik ediblər.

Bir sıra xarici ölkələrin elmi qurumlarının rəhbərlərinin iştirak etdiyi tədbirdə Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, akademik Roin Metreveli məruzə ilə çıxış edib. Məruzədə Gürcüstan MEA-nın tarixi inkişaf mərhələlərindən söz açılıb.

Yubiley iclasında Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli çıxış edib. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxışında Azərbaycanla Gürcüstan arasında bütün sahələrdə olduğu kimi elm sahəsində də əməkdaşlıq əlaqələrinin inkişaf etdirildiyini diqqətə çatdırıb. Xüsusilə AMEA ilə Gürcüstan Milli Elmlər Akademiyası və Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutu arasındakı mövcud elmi-ədəbi əlaqələrdən, birgə layihələrdən, müştərək konfranslardan danışan akademik İsa Həbibbəyli qarşılıqlı elmi-ədəbi əməkdaşlığın əhəmiyyətini vurğulayıb, qarşılıqlı əlaqələrin bütün elmi istiqamətlər üzrə davam etdirildiyini bildirib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi, akademik Asəf Hacıyev çıxışında iki ölkə arasında tarixən mövcud olan dostluq münasibətlərinin əhəmiyyətini diqqətə çatdırıb.

Tədbirdə Gürcüstanın hökumət və parlament üzvləri, eləcə də elmi ictimaiyyətin nümayəndələri iştirak ediblər.



"Ədəbi proses - 2025" mövzusunda elmi-yaradıcılıq müşavirəsi

Noyabrın 4-də AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Ədəbi proses - 2025" mövzusunda elmi-yaradıcılıq müşavirəsi keçirilib.

Tədbirdə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, millət vəkili, filologiya elmləri doktoru Elnarə Akimova, Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, Ədəbiyyat İnstitutunun alimləri, tanınmış yazarlar, ədəbiyyatşünaslar, media nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə foyedə "Ədəbi proses" elmi-yaradıcılıq müşavirələrini əks etdirən nəşrlərdən ibarət sərgiyə baxış olub.

Müşavirəni giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq ədəbi prosesin İkinci Qarabağ müharibəsindən sonrakı illərinin əsasən Zəfər diskursu üzərində kökləndiyini bildirib. Vurğulayıb ki, bu, ədəbiyyatda təbii bir prosesin ifadəsidir.

"Böyük Qayıdış ədəbiyyatı" mövzusunda məruzə ilə çıxış edən akademik İsa Həbibbəyli 2025-ci ilin ədəbi mənzərəsində Qarabağ Zəfəri və Böyük Qayıdış mövzusunun bədii ədəbiyyatda yeni məzmun və yanaşmalarla təzahür etdiyini bildirib. Qeyd edib ki, Qarabağda qazanılmış tarixi Zəfər Azərbaycan ədəbiyyatı qarşısında uzun illər aktual qalacaq və müxtəlif janrlarda fundamental bədii əsərlərin yaranmasına zəmin yaradacaq böyük mövzudur.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, Zəfərdən sonra bu hadisənin ədəbiyyatda ilkin emosional ifadəsi tədricən daha dərindən dərk və təhlil mərhələsi ilə əvəzlənir. Əgər əvvəlki illərdə əsərlərdə daha çox müharibə xatirələri, qaçqınlıq və məcburi köçkünlük dövrünün ağrılı yaşantıları əks olunurdusa, 2025-ci ildə Birinci Qarabağ müharibəsi, Vətən müharibəsi və "Böyük Qayıdış" prosesini vahid tarixi kontekstdə təqdim etmək meyli güclənib.

Onun sözlərinə görə, "Böyük Qayıdış" yalnız insanların doğma torpaqlarına köçü deyil, həm də tarixi yaddaşın, milli kimliyin və həyatın yenidən bərpası prosesidir. Bu baxımdan, yeni ədəbi nümunələrdə doğma yurda qayıdışın yaratdığı sevinc və həyəcanla yanaşı, keçmişin faciəli hadisələrinə qayıdış, müharibənin nəticələrinin dərki və qazanılmış Zəfərin tarixi əhəmiyyətinin bədii ifadəsi də ön plana çıxır.



"2025-ci ildə "Böyük Qayıdış" mövzusuna müraciət edən nəsr və dramaturgiya nümunələrinin yaranması bu istiqamətdə yeni ədəbi mərhələnin başlandığını göstərir", - deyən AMEA rəhbəri bildirib ki, ayrı-ayrı şeir və hekayələrlə yanaşı, mövzunun daha geniş epik miqyasda, xüsusilə roman və dram əsərlərində işlənilməsinə ehtiyac var. Akademik İsa Həbibbəyli, həmçinin bölgələrdə ədəbi yaradıcılığın inkişafının, yerli müəlliflərin yaradıcılıq potensialının üzə çıxarılmasının vacibliyini vurğulayaraq, Azərbaycan ədəbiyyatının yalnız ölkə daxilində deyil, dünya miqyasında tanınan və qəbul edilən bədii dəyərlər yaratmasının önəminə toxunub.

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid 2025-ci ilin ədəbi prosesinin müzakirəsinin bədii yaradıcılıqda keyfiyyət meyarlarının müəyyənləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Qarabağ Zəfəri və "Böyük Qayıdış" mövzularında indiyədək çoxsaylı şeir, hekayə və romanlar qələmə alınıb. Bu əsərlər arasında yüksək bədii keyfiyyətə malik nümunələrlə yanaşı, daha çox şablon xarakteri daşıyan yazılar da mövcuddur. Ədəbi prosesə dair elmi müzakirələr və tənqidi təhlillər bu mövzuda yazılan əsərlərin bədii-estetik səviyyəsinin yüksəldilməsinə, mövzuya daha dərindən yanaşılmasına mühüm təsir göstərə bilər.

Rəşad Məcid, həmçinin Bakı Beynəlxalq Kitab Sərgisinin ədəbi prosesin öyrənilməsi baxımından diqqətəlayiq hadisə olduğunu deyərək, gələcək illərdə sərginin ədəbi mühitə, oxucu marağına və nəşriyyat fəaliyyətinə təsirinin ayrıca tədqiqat mövzusu kimi araşdırılmasını təklif edib. O, sərgidə detektiv ədəbiyyata marağın artdığını, gənc müəlliflərin müharibə, şəhid ailələri, cəmiyyətin mənəvi-psixoloji vəziyyəti və nəsillərarası dünyagörüşü fərqləri kimi mövzulara müraciət etdiklərini diqqətə çatdırıb. AYB-nin sədr müavini bu əsərlərin ədəbi tənqid baxımından təhlil edilməsinin yeni ədəbi meyillərin müəyyənləşdirilməsinə imkan yaradacağını bildirib.

Kitab sərgisində müşahidə etdiyi oxucu fəallığından da bəhs edən Rəşad Məcid vurğulayıb ki, müxtəlif yaş və peşə qruplarından olan insanların kitablara, o cümlədən xarici müəlliflərin əsərlərinə göstərdiyi maraq Azərbaycanda geniş oxucu auditoriyasının mövcudluğunu təsdiqləyir. O, gələcək "Ədəbi proses" müşavirələrində Bakı Beynəlxalq Kitab Sərgisinin, müasir detektiv ədəbiyyatın və yeni nəsil müəlliflərin yaradıcılığının ayrıca təhlil edilməsinin məqsədəuyğun olduğunu bildirib.

"Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turan isə çıxışında müasir dövrdə süni intellektin sürətlə inkişafının ədəbiyyata və bütövlükdə bəşəriyyətin mənəvi dəyərlərinə təsirlərinə diqqət çəkib. O, süni intellektin artıq həyatın bütün sahələrinə nüfuz etməklə yanaşı, ədəbi mətnlərin, musiqi əsərlərinin və digər yaradıcılıq nümunələrinin istehsalında da iştirak etdiyini bildirib. Hazırda süni intellekt vasitəsilə yaradılan ədəbiyyat nümunələrinin meydana çıxmasının müəlliflik, yaradıcılıq, sənət və bədii dəyər anlayışlarına yeni yanaşmalar tələb etdiyini diqqətə çatdırıb.

Azər Turan qeyd edib ki, süni intellektin yaratdığı mətn və musiqi nümunələri müəyyən maraq doğursa da, burada insan yaradıcılığını səciyyələndirən ruhun, emosional yaşantının və mənəvi dərinliyin mövcudluğu məsələsi xüsusi müzakirə predmetidir. O, texnologiyanın müsbət imkanlarını inkar etmədən, onun bəşəriyyətin təsəvvürlərinə, yaddaşına və dəyərlər sisteminə mümkün təsirlərinin akademik və intellektual müstəvidə diqqətlə araşdırılmasının vacibliyini vurğulayıb. Baş redaktor növbəti "Ədəbi proses" müşavirəsində "Süni intellekt və ədəbiyyat" mövzusunun ayrıca müzakirəyə çıxarılmasını təklif edib. Bildirib ki, süni intellektin ədəbi yaradıcılığa təsiri, yaratdığı əsərlərin mahiyyəti və müəllifin yaradıcılıq prosesindəki yeri müasir ədəbiyyatşünaslığın diqqət yetirməli olduğu aktual məsələlərdəndir.

Tədbirdə çıxış edən AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli və "Ulduz" jurnalının baş redaktor müavini, yazıçı-publisist Tərənə Vahid müşavirənin ədəbi prosesin təhlili, aktual ədəbi tendensiyaların müəyyənləşdirilməsi və yaradıcılıq mühitinin inkişafı baxımından əhəmiyyətini vurğulayıblar. Çıxışçılar Ədəbiyyat İnstitutunun bu istiqamətdə həyata keçirdiyi elmi və ədəbi-tənqidi fəaliyyətin, xüsusilə Zəfər Gününün tarixi və mənəvi məzmununun ədəbiyyatda təbliği və bədii dərkinə verdiyi töhfəni yüksək qiymətləndiriblər.

Daha sonra Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova "2025-ci ilin ədəbi mənzərəsi - sözün yaddaşından gələcəyə yolçuluğu" adlı geniş məruzə ilə çıxış edib. O, 2025-ci ilin Azərbaycan ədəbiyyatının əsas mövzu və tendensiyalarını təhlil edərək ötən ilin ədəbi mənzərəsinin milli yaddaş, suverenlik, Qarabağa qayıdış, Qərbi Azərbaycan irsi və türk dünyası ilə ədəbi-mədəni əlaqələr kontekstində formalaşdığını diqqətə çatdırıb. Məruzədə klassik ədəbi irsin araşdırılması, müasir ədəbiyyat nümunələri, yeni nəşrlər, ədəbi müzakirələr və Azərbaycan ədəbiyyatının beynəlxalq miqyasda tanıdılması istiqamətində görülən işlərə nəzər salınıb.

Elnarə Akimova, həmçinin süni intellektin və rəqəmsal texnologiyaların ədəbiyyata təsiri, müasir dövrdə bədii mətnin dəyəri və sənətin cəmiyyətdəki missiyası məsələlərinə toxunub. Vurğulayıb ki, dəyişən dünyada ədəbiyyatın başlıca vəzifələrindən biri tarixi və milli yaddaşı qorumaqla yanaşı, insanın mənəvi dünyasını, fərdi yaşantılarını və dövrün reallıqlarını bədii söz vasitəsilə gələcək nəsillərə çatdırmaqdır.

Tədbirdə filologiya elmləri doktoru Vaqif Yusifli "Şairlər və yollar (2025-ci ilin poeziyası ilə bağlı qeydlər)", filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözova "2025-ci ilin Azərbaycan nəsri: mövzu və poetika axtarışları", filologiya elmləri doktoru Cavanşir Yusifli "Tənqid ölçüsü", professor Asif Rüstəmli "Ədəbiyyatşünaslıq sənəti", filologiya üzrə fəlsəfə doktorları Südabə Ağabalayeva "Ədəbi gəncliyin bədii üfüqləri - 2025", Şahanə Əliyeva "Azərbaycan dramaturgiyası - 2025", Nurlana Məmmədova "Bölgələrdə ədəbi həyat", filologiya elmləri doktorları Pərvanə Məmmədli "Güney Azərbaycanda ədəbiyyat: ilin ədəbi-mədəni mənzərəsi, əsas meyarlar və problemlər" mövzularında məruzələrlə çıxış ediblər.

Müşavirədə, həmçinin Elçin Mehrəliyevin "Böyük qayıdış: xatirələr, duyğular, arzular publisistikada", filologiya üzrə fəlsəfə doktoru, dosent Gülnar Qəmbərlinin "Azərbaycan uşaq ədəbiyyatı 2025-ci ildə: müasir tendensiyalar, nəşr prosesi və inkişaf istiqamətləri", filologiya elmləri doktoru Lalə Həsənovanın "Azərbaycanın rusdilli ədəbiyyatı - 2025", filologiya üzrə fəlsəfə doktorları Rasim Nəbioğlunun "Naxışlar və yanlışlar (Tərcümə - 2025)", Orxan İsayevin "2025-ci il iraq-türkman ədəbiyyatında ədəbi mənzərə: poeziya ənənələrinə sədaqət", eləcə də Ayna Əhmədlinin "Sosial şəbəkə ədəbiyyatı" adlı məruzələri dinlənilib.

Akademik İradə Hüseynova: Zəfər Azərbaycanın milli gücünün, birliyinin və elmi potensialının təntənəsidir

Zəfər Günü Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuş, milli tariximizin axarını dəyişmiş möhtəşəm hadisədir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbə xalqımızın sarsılmaz iradəsini, birliyini, Vətənə bağlılığını və dövlətimizin gücünü bütün dünyaya nümayiş etdirdi. Bu Zəfər ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin bərpası ilə yanaşı, Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri açdı, milli özünəinamı daha da gücləndirdi. Bu gün həmin tarixi uğurun məsuliyyətini dərk etmək, onu ölkəmizin hərtərəfli tərəqqisi ilə möhkəmləndirmək qarşıda duran əsas vəzifələrdəndir.



Bu fikirləri akademik İradə Hüseynova Zəfər Günü ilə bağlı AZƏRTAC-a açıqlamasında bildirib.

Akademik xatırladıb ki, Azərbaycanın tarixi Qələbəsi xalqımızın dövlətçilik ənənələrinə, milli birliyinə, Müzəffər Ali Baş Komandana və öz gücünə inamına söykənən böyük iradənin təzahürüdür. Vətən müharibəsində hərbçilərimizin qəhrəmanlığı, xalqımızın həmrəyliyi, dövlətimizin siyasi iradəsi və güclü idarəçilik strategiyası bu Qələbənin əsasını təşkil edib. Şəhidlərimizin müqəddəs xatirəsi, qazilərimizin fədakarlığı və müharibə iştirakçılarının qəhrəmanlığı Zəfər tariximizin mənəvi dayağıdır. Bu tarixi dərk etmək, onu gələcək nəsillərə olduğu kimi çatdırmaq hər birimizin borcudur.

O qeyd edib ki, Zəfərdən sonra Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri tarixi nailiyyətləri davamlı inkişafla möhkəmləndirməkdir. Müasir dünyada dövlətin gücü hərbi-iqtisadi imkanlarla yanaşı, elmi potensialı, texnoloji müstəqilliyi və insan kapitalı ilə müəyyən olunur. Bu baxımdan elmi tədqiqatların ölkənin strateji inkişaf hədəflərinə yönəldilməsi, fundamental biliklərin innovasiyalara və praktik nəticələrə çevrilməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın zəngin bioloji sərvətləri, nadir bitki və heyvan növləri, ekosistemləri və genetik ehtiyatları böyük elmi potensiala malikdir. Molekulyar-genetik tədqiqatlar, biotexnologiya, bioinformatika və müvafiq rəqəmsal texnologiyaların imkanlarından istifadə bu sərvətlərin öyrənilməsi, milli genefondun qorunması və davamlı istifadəsi üçün yeni perspektivlər açır. İqlim dəyişmələri, ekoloji problemlər və ərzaq təhlükəsizliyi ilə bağlı qlobal çağırışlar bu sahələrin strateji əhəmiyyətini daha da artırır.

Akademik vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərində elmin imkanlarından geniş istifadə olunmalıdır. Bu ərazilərin biomüxtəlifliyinin, flora və faunasının, torpaq və su ehtiyatlarının kompleks öyrənilməsi, pozulmuş ekosistemlərin bərpası alimlərin qarşısında duran mühüm vəzifələrdəndir. Yaşıl enerji, ekoloji təmiz kənd təsərrüfatı, təbii resursların səmərəli idarə olunması və ekosistemlərin mühafizəsi regionun dayanıqlı inkişafının əsas istiqamətləri kimi nəzərə alınmalıdır. İ.Hüseynova hesab edir ki, ölkənin elmi gələcəyi gənc tədqiqatçıların yetişdirilməsindən və onların potensialının reallaşdırılmasından birbaşa asılıdır. Gənc alimlərin müasir laboratoriyalara, qabaqcıl tədqiqat metodlarına və beynəlxalq elmi əməkdaşlıq imkanlarına çıxışının təmin edilməsi, təşəbbüslərinin dəstəklənməsi milli intellektual potensialın güclənməsinə xidmət edir. Bu gün gənclərə yaradılan elmi imkanlar Azərbaycanın sabahkı nailiyyətlərinin təməlidir.

Akademik vurğulayıb ki, elmi diplomatiya da müasir Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsində mühüm vasitədir. Azərbaycan alimlərinin dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlığı, birgə tədqiqatlarda iştirakı, beynəlxalq konfrans və simpoziumlarda ölkəmizi təmsil etməsi milli elmin imkanlarının tanıdılmasına şərait yaradır. Bu əlaqələr qabaqcıl elmi təcrübənin ölkəmizə gətirilməsi, yeni tədqiqat istiqamətlərinin formalaşdırılması və Azərbaycan elminin beynəlxalq elmi məkanda mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyətlidir. Zəfərin tarixi və mənəvi əhəmiyyətinin qorunması da dövlət və cəmiyyət qarşısında mühüm vəzifədir. Bu hadisənin elmi, tarixi və ictimai baxımdan araşdırılması, tarixi həqiqətlərin sənədləşdirilməsi, əldə olunan nəticələrin beynəlxalq elmi və mədəni platformalarda təqdim edilməsi milli yaddaşın möhkəmlənməsinə xidmət edir. Ali təhsil müəssisələri, elmi-tədqiqat institutları və digər araşdırma mərkəzləri bu istiqamətdə fəal iştirak etməli, Zəfərin yaratdığı yeni reallıqların müxtəlif elmi aspektlərini öyrənməlidirlər.

Akademik hesab edir ki, Zəfər Günü hər bir azərbaycanlıya qürur yaşatmaqla yanaşı, gələcək qarşısında məsuliyyətimizi də xatırladır. Bu Qələbə xalqımızın nəyə qadir olduğunu göstərdi. İndi həmin iradəni quruculuqda, elmdə, təhsildə, texnologiyada və iqtisadi inkişafda nümayiş etdirmək zamanıdır. Güclü dövlətin təməlində güclü elm, yüksək intellektual potensial, sağlam düşüncə və Vətənə bağlı gənc nəsil dayanır. İ.Hüseynova qeyd edib ki, Azərbaycan xalqının Zəfər salnaməsi gələcək nəsillər üçün əbədi qürur mənbəyi və vətənpərvərlik nümunəsi olaraq qalacaq. Şəhidlərimizin əziz xatirəsinə, qazilərimizin fədakarlığına və xalqımızın tarixi iradəsinə ən böyük ehtiram ölkəmizin inkişafı naminə çalışmaq, milli sərvətlərimizi qorumaq və elmi potensialımızı daha da gücləndirməkdir.

O əlavə edib ki, Azərbaycan alimləri öz bilikləri, araşdırmaları və yenilikçi ideyaları ilə bu böyük inkişaf yoluna layiqli töhfələr verəcək, Zəfərdən doğan qüruru yeni elmi və intellektual nailiyyətlərlə tamamlayacaqlar.

İranda ana dilində təhsil hüququ: *problemlər və həlli yolları*

Danılmaz faktdır ki, İranda yaşayan azərbaycanlılar tarix boyu bu ölkənin ictimai-siyasi, elmi-mədəni həyatında mühüm rol oynamış, onun inkişafına əhəmiyyətli töhfələr vermişlər. Azərbaycanlıların əsrlər boyu qoruyub yaşatdıqları zəngin ədəbi-tarixi irs, milli-mədəni dəyərlər və formalaşdırdıqları ənənələr təkcə İrannın deyil, bütövlükdə regionun ictimai və mədəni həyatında da özünəməxsus yer tutmuşdur.



Lakin təəssüf doğuran məqam ondan ibarətdir ki, İranda yaşayan soydaşlarımızın öz doğma ana dilində təhsil almaq hüququ bu günədək təmin olunmamışdır. Zəngin tarixi və ədəbi ənənələrə malik Azərbaycan dili yalnız gündəlik ünsiyyət vasitəsi kimi məişət mühitindən kənara çıxa bilməmişdir. Bu isə soydaşlarımızın öz ana dilini qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə miras olaraq ötürmək imkanları ilə bağlı dərin təəssüf və haqlı narahatlığına səbəb olur. Çünki bir xalqın öz doğma ana dilində təhsil hüququnun təmin edilməsi yalnız dil və mədəniyyət məsələsi deyil, həm də o, xalqın fundamental hüquqlarının qorunması və milli-mədəni irsinin yaşadılması baxımından mühüm önəm kəsb edir. Bu hüquq, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının əsas prinsiplərində də öz əksini tapan fundamental insan hüquq və azadlıqlarından biri hesab olunur.

İranda Azərbaycan dilində təhsil verən məktəblərin açılması, eləcə də ali təhsil müəssisələrində soydaşlarımızın öz doğma ana dilində təhsil almaq imkanlarının yaradılması məsələsi kompleks siyasi-hüquqi yanaşma tələb edir. Belə ki, bu proses hüquqi baxımdan müəyyən konstitusion əsaslara söykənir. Doğrudur, İran İslam Respublikasının Konstitusiyasında ana dilinin məktəblərdə tədrisi üçün hüquqi əsas mövcuddur. Lakin təəssüf ki, konstitusion səviyyədə təsbit olunmuş bu hüquqi imkanlar kağız üzərində qalaraq, praktik cəhətdən tam və səmərəli şəkildə öz həllini gözləyir. Belə ki, İran İslam Respublikasının Konstitusiyasının I fəslinin (”Ümumi müddəalar”) 15-ci maddəsində (Rəsmi dil və yazı) qeyd olunur ki, İran xalqının rəsmi və ümumi dili və yazısı fars dilidir. Rəsmi sənədlər, yazışmalar və mətnlər, eləcə də dərsliklər bu dildə və yazıda olmalıdır. Bununla belə, fars dili ilə yanaşı, regional və etnik dillərdən mətbuatda və kütləvi informasiya vasitələrində istifadə edilməsinə, habelə həmin dillərin ədəbiyyatının məktəblərdə tədrisinə icazə verilir.

Göründüyü kimi, İranda təhsil sistemi farsdilli model üzərində qurulsa da, Azərbaycan dilinin tədrisi üçün konstitusion əsas mövcudur. Bunun üçün, ilk növbədə ümumtəhsil müəssisələrində Azərbaycan dilinin sistemli şəkildə tədris edilməsi məqsədilə, müvafiq tədris proqramları işlənilməli, dərsliklər nəşr olunmalı və ixtisaslı kadrlar hazırlanmalıdır.

Azərbaycan bu sahədə müəyyən təcrübəyə və əməkdaşlıq potensialına malikdir. Belə ki, Rusiya Federasiyasının Dağıstan Respublikasında, eləcə də Gürcüstan Respublikasında soydaşlarımızın kompakt və sıx yaşadıqları bölgələrdə Azərbaycan dilinin tədrisi sahəsində mövcud təcrübə bu istiqamətdə mühüm nümunə ola bilər. Məsələn, Dağıstan Respublikasının Dərbənd şəhərində və Dərbənd rayonunun kənd məktəblərində ibtidai siniflərdə tədris birbaşa Azərbaycan dilində aparılır. Yuxarı siniflərdə isə ümumi dərslər rus dilində keçirilsə də, Azərbaycan dili və ədəbiyyatı ayrıca müstəqil bir fənn kimi proqrama daxil edilərək tədris olunur. Eyni zamanda, dostluq və əməkdaşlığın rəmzi olaraq Dərbənd rayonunun Cəmikənd kəndində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin adını daşıyan orta məktəb fəaliyyət göstərir. Bu məktəblərin ehtiyaclarını qarşılamaq üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən ana dilində pulsuz dərslik və dərs vəsaitlərinin çatdırılması həyata keçirilir. Yerli məktəbləri ixtisaslı kadrlarla təmin etmək məqsədilə Dağıstan Dövlət Pedaqoji Universitetində (DDPU) və Dərbənddəki ali təhsil müəssisələrinin filologiya bölmələrində Azərbaycan dili müəllimləri hazırlanır.

Gürcüstan Respublikasında fəaliyyət göstərən azərbaycandilli məktəblərdə isə soydaşlarımızın öz doğma ana dilini, mədəniyyətini və milli kimliyini qoruyub saxlamasına xüsusi diqqət yetirilir. Hazırda bu ölkədə 116 azərbaycandilli və Azərbaycan bölməsi olan məktəb fəaliyyət göstərir. Bu məktəblərin böyük hissəsi soydaşlarımızın sıx məskunlaşdığı Kvemo Kartli (Borçalı) və Kaxetiya bölgəsindədir. Paytaxt Tbilisi şəhərində isə üç Azərbaycandilli məktəb və 150 ildən artıq yaşı olan M.F.Axundzadə adına 73 saylı tam orta məktəb fəaliyyətini davam etdirir. İki ölkənin Elm və Təhsil Nazirliklərinin əməkdaşlığı çərçivəsində Gürcüstandakı azərbaycandilli ibtidai sinif müəllimlərinin peşəkar inkişafı üçün mütəmadi olaraq ixtisasartırma kursları və təlim proqramları təşkil edilir, məktəblərin pulsuz dərslik və dərs vəsaitləri ilə təmin olunması həyata keçirilir.

Azərbaycanda müxtəlif xalqların ana dilində təhsil almaq imkanlarının təmin edilməsinə, onların dilinin və ədəbi-mədəni irslərinin qorunub saxlanılmasına xüsusi önəm verilir. Bu yanaşma milli azlıqların hüquqlarına yüksək hörmətin və bu sahədə qarşılıqlı əməkdaşlığın bariz nümunəsidir. Belə ki, hazırda ölkəmizdə tədrisin rus dilində aparıldığı iki yüzdən çox məktəb fəaliyyət göstərir. Bundan əlavə, 10 məktəbdə tədris gürcü dilində həyata keçirilir. Bütün bu müsbət göstəricilər qonşu ölkələr arasında dostluq münasibətlərinin və qarşılıqlı etimadın möhkəm təməllər üzərində qurulduğundan xəbər verir.

Bu baxımdan, Azərbaycan qarşılıqlı razılıq və mövcud hüquqi çərçivə əsasında bu sahədə qazandığı təcrübəni və elmi-pedaqoji potensialı İran İslam Respublikası ilə də bölüşərək, bu prosesə öz real töhfəsini verə bilər.

Siyasi baxımdan yanaşdıqda isə, İran hökuməti ölkədə vahid dövlət dilinin qorunması ilə yanaşı, digər xalqların ana dilində təhsil hüquqlarının təmin edilməsi ilə bağlı tarazlığı qoruması vacibdir. Belə ki, digər etnik kökənli ölkə vətəndaşlarının öz ana dillərinin tədrisi ilə bağlı tələblərini avtomatik olaraq separatçılıq və ya dövlətin ərazi bütövlüyünə ciddi təhdid kimi qiymətləndirmək düzgün yanaşma deyildir. Əksinə, bu ölkədə ədalətə və bərabərliyə sadiqliyin tərənnümü milli-mədəni müxtəlifliyə verilən ən yüksək qiymətdir.

Bu prosesin uzun dövrü əhatə edəcəyini nəzərə alaraq, mərhələli şəkildə yanaşsaq, ilk addım kimi məktəblərdə Azərbaycan dili və ədəbiyyatının ayrıca fənn kimi sistemli şəkildə tədrisinin təşkili nəzərdən keçirilə bilər. Növbəti mərhələdə rəsmi dövlət dili ilə yanaşı, Azərbaycan dilinin də tədris prosesində daha geniş tətbiqini nəzərdə tutan ikidilli təhsil modelinin tətbiqi məqsədəuyğun olardı. Uzunmüddətli perspektivdə isə müvafiq hüquqi və institusional əsaslar formalaşdırılmaqla, Azərbaycan dilində təhsil verən ümumtəhsil məktəblərinin yaradılması və ali təhsil müəssisələrində Azərbaycan dilində tədris imkanlarının genişləndirilməsi məsələsi nəzərdən keçirilə bilər.

Bununla yanaşı, Azərbaycan dilində qəzet və jurnalların çapı, elmi və bədii əsərlərin nəşri, habelə Azərbaycan dilinin elmi, mədəni və ictimai həyatda istifadəsinə dəstək verilməsi də bu istiqamətdə mühüm əhəmiyyət daşıyır.

İran İslam Respublikasının Prezidenti cənab Məsud Pezeşkianın Azərbaycan xalqına, onun milli adət-ənənələrinə, milli dəyərlərinə, ədəbiyyatına olan xüsusi həssas münasibəti, ehtiram və məhəbbəti, eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə səmimi dostluq münasibətləri bu problemin tezliklə həll olunacağına böyük inam yaradır.

Bu məqamda İran Prezidenti Məsud Pezeşkianın seçki kampaniyası zamanı İran İslam Respublikası Konstitusiyasının etnik qrupların ana dilində təhsil hüququnu nəzərdə tutan müvafiq müddəalarının praktikada həyata keçirilməsi ilə bağlı verdiyi vədləri də xatırlatmaq yerinə düşər. Belə ki, 2024-cü il prezident seçkiləri kampaniyası zamanı o, Azərbaycan türkləri də daxil olmaqla, qeyri-fars xalqların (kürd, ərəb, bəluç və s.) dili və mədəni hüquqlarının təmin olunmasını, bu xalqların ədəbiyyatının məktəblərdə fars dili ilə yanaşı tədrisi üçün Konstitusiyanın 15-ci maddəsinin icrasına nail olunmasını müdafiə etmişdir. Bu məqsədlə hətta ilkin təşkilati addım kimi xüsusi komitə də yaradılmışdır. 2025-ci il fevral ayının 26-da isə İran parlamentində məktəblərdə qeyri-fars dillərin və ədəbiyyatının seçmə qaydada tədrisini nəzərdə tutan qanun layihəsi səsverməyə çıxarıldı. Təəssüf ki, Qanun layihəsi 104 lehinə, 130 əleyhinə səs olmaqla qəbul edilmədi.

Lakin bütün bu maneələrə və mövcud çətinliklərə rəğmən, inanırıq ki, cənab Məsud Pezeşkianın rəhbərliyi ilə İran hökuməti ali siyasi iradə nümayiş etdirərək, bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atacaq, İranda yaşayan azərbaycanlıların milli kimliiklərinin, zəngin ədəbi-tarixi irsinin və milli mənsubiyyətinin ayrılmaz tərkib hissəsi olan Azərbaycan dili İran İslam Respublikasında layiq olduğu hüquqi statusa qovuşacaqdır.

Bu tarixi həqiqət və milli varlıq fəlsəfəsi şair Vaqif Kəhrizlinin ”Ana dilim ölən deyil” şeirində özünün dolğun poetik ifadəsini tapmışdır:

Azərbaycan - mənim elim,
Azərbaycan - mənim dilim,
Doğransa da dilim-dilim,
Başqa dilə çönən deyil.

Həm Arazam, həm də Kürəm,
Axıb Xəzərə töküllərəm.
Dilim ölsə, mən də ölləm,
Ana dilim ölən deyil.

Coşqun MƏMMƏDOV
AMEA Rəyasət Heyətinin elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru

2026-cı ilin Nobel mükafatı laureatları

Dünya elminin prioritetləri

Alfred Nobelin 27 noyabr 1895-ci il tarixli vəsiyyətinə görə o, dövlətinin 94%-ni (31 million İsveç kronunu) cəmiyyətə ən çox fayda verənləri təltif etməyi vəsiyyət etmişdir. Bu gün bu məbləğ təqribən 198 million dollara yaxındır.

Nobel mükafatına namizədlər İsveç və Norveç Akademiyaları, Nobel komitələri, Nobel mükafatçıları və Akademiyanın məsləhət bildiyi alimlər tərəfindən irəli sürülür. Hər il Nobel fondu aparıcı alimlərə sorğular göndərir və təqribən bir neçə min alim, onların kəşfləri haqqında məlumat toplanır və filtrdən keçirilir (namizədlər sağ olmalıdır, onların müəllifliyi heç bir şübhə doğurmamalıdır, bəzi aşkarlanmayan daxili prinsiplər də var), onlardan bir neçə yüzü nominant kimi seçilir, 5-6 əsas namizəddən - finalistdən isə ən çoxü 3-ü Nobel mükafatına layiq bilinir (bütün materiallar 50 il ərzində məxfi saxlanılır).

Nobel mükafatı laureatları 5-12 oktyabr 2026-cı ildə elan edilib. Nobel mükafatçılarından əvvəl bir neçə mükafatların ən şanslı "laureatlar"ının da siyahısı çap olunur.

Nobel həftəsinə az qalmış Nobelə alternativ sayılan Breakthrough prize (yarıbkeçmə, nailiyyət, yəni bir neçə nüfuzlu mükafatların alınması Nobel almaq şansını artırır). Onu "elmi Oskar" da adlandırırlar. Əsas nominasiyalar: həyat elmləri, fundamental fizika və riyaziyyat.

Əsas Mükafatlar Həyat Elmləri (Life Sciences):

Jean Bennett, Katherine A. High və Albert Maguire - İrsiləşən torlu qişa degenerasiyası üçün gen terapiyasının inkişaf etdirilməsinə görə (genetik xəstəlik üzrə ilk FDA təsdiqli gen terapiyası).

Stuart H. Orkin və Swee Lay Thein - Döl (fetal) hemoglobinindən yetkin hemoglobinə keçidi idarə edən mexanizmin açılmasına və bunun orahüceyrə Anemiya (sickle-cell) ilə beta-talassemiya üçün müalicə hədəfi kimi təsdiqlənməsinə görə.

Rosa Rademakers və Bryan Traynor - ALS (amiotrofik lateral skleroz) və frontotemporal demensiyanın əsas genetik səbəbinin kəşfinə görə.

Fundamental Fizika (Fundamental Physics): CERN, Brookhaven Milli Laboratoriyası və Fermilab-dakı Muon g-2 Kolaborasiyaları - Myuonun anomomal maqnit momentinin yüksək dəqiqliklə ölçülməsinə görə.

Xüsusi Fundamental Fizika Mükafatı (Special Breakthrough Prize): David J. Gross - Güclü nüvə qüvvəsindən simlər nəzəriyyəsinə qədər nəzəri fizikaya verdiyi ömürlük töhfələrə görə.

Riyaziyyat (Mathematics):Frank Merle-Qeyri-xətti təkamül tənliklərindəki sıçrayışların kəşfinə görə.

Erkən Karyera Mükafatları

Yeni Üfüqlər Fizika Mükafatı (New Horizons in Physics): Benjamin R. Safdi, Clay C?rdova, Thomas Dumitrescu, Shu-Heng Shao, Yifan Wang, Dillon Brout, J. Colin Hill, Mathew Madhavacheril, Maria Vincenzi, Daniel Scolnic və W. L. Kimmy Wu.

Yeni Üfüqlər Riyaziyyat Mükafatı (New Horizons in Mathematics): Otis Chodosh, Hong Wang, Vesselin Dimitrov və Yunqing Tang.

Maryam Mirzəxani Yeni Sərhədlər Mükafatı (Maryam Mirzakhani New Frontiers): Amanda Hirschi, Anna Skorobogatova və Mingjia Zhang.

Vera Rubin Yeni Sərhədlər Mükafatı (Vera Rubin New Frontiers): Səpələnmə amplitudlarının geostrukturlarına verdiyi töhfələrə görə Carolina Figueiredo.

Fiziologiya və ya tibb üzrə

Nobel mükafatına ABŞ alimi Karl Daysserot və alman alimləri Peter Hageman və Georg Hagel işıqla tənzimlənən ion kanalları və optogenetika sahəsində kəşflərə görə layiq görülüblər.

Nobel mükafatı laureatlara müəyyən əsəb hüceyrələrinin aktivliyini işıq vasitəsilə idarə etməyin mümkünlüyü haqqında kəşflərə görə verilib. Təklif olunan metod konkret olaraq hansı əsəb hüceyrələrinin yaddaşı, emosiyaları, davranışı formalaşdırması haqqında dəqiq məlumat almağa imkan verir.

2026-cı il Nobel mükafatının tarixi mikroskopik yaşıl yosunlardan başlayib. 2000-ci illərdə Peter Hageman və Georg Hagel göstərmişlər ki, yosunların xüsusi zülalları olan kanal rodopsinlər işığın təsirindən ion kanallarını açmaq qabiliyyətinə malikdirlər. Nəticədə hüceyrəyə yüklü hissəciklər daxil olur və elektrik siqnalı yaranır. Ən maraqlısı o idi ki, belə zülalın genini tamamilə başqa hüceyrəyə daxil etməklə onu da işığa həssas etmək olar.

Karl Daysserot bu xassədən istifadə edib kanal rodopsinin genini gəmiricilərin əsəb hüceyrələrinə daxil etdi və göstərdi ki, göy işıq onlarda elektrik impulsunun yaranmasına səbəb olur



(2005). Beləliklə təkhüceyrəli yosunun işığa tərəf yerdəyişməsinin fundamental tədqiqi beynin ayrı-ayrı əsəb hüceyrələrinin idarə edilmə texnologiyasının yaradılması üçün əsas oldu. Bu beyin xəstəliklərinin və hissiyat orqanlarının müalicəsində yeni imkanlar açır.

Praktiki perspektivlər. Optogenetik terapiyanın ideyası görmə orqanlarında hələ funksiyasını saxlayan hüceyrələrə yeni işığa həssas zülal daxil etməklə torlu qişaya işığa qarşı həssaslığı qismən də olsa qaytarmağın mümkün olmasıdır.

Fizika üzrə

Frensiz Xalsen hələ 1988-ci ildə uzaq Kainatdakı yüksək energetik proseslərdə yaranan astrofizik neytrinonu aşkara çıxarmaq üçün Cənub qütbündəki buzlaqdan istifadə etməyi təklif etmişdir. Antarktidada "Amundsen Skott" stansiyasının altında yerləşən yüksək nəmişlik dərəcəsinə malik, şəffaf, əlavə təsirlərdən azad olan 1 kv.km həçmində buzun 2,5 km dərinliyində çox həssas fotoelement qoyulmuş, qazılan 86 quyudan isə detekrorlar daxil edilmişdir. İceCube adlandırılan bu neytrino observatoriyası kütləsi sıfıra yaxın, elektrik yükü olmayan trillionlarla neytrinonun Kainatı dəyişmədən keçib çox-çox nadir halda büz və ya su atomu ilə toqquşaraq mavi qığılcım verməsini qeyd edir.

2013-cü ildə ilk dəfə astrofizika mənşəli yüksək energetik neytrinonun mövcudluğu haqqında ciddi sübutlar əldə edildi. 2017-ci ildə neytrino hadisələri ilə əlaqədar müşahidə edilən ifrat ağır qara dəliklərə yaxın olan qalaktikaların (məsələn, NGC 1068 qalaktikasının aktiv nüvəsi, TXS 0506+056 blazarı)) sıxlığı yüksək olan sahələrində kosmik şuaların sürətlənməsi və neytrinonun yaranmasının mümkünlüyünü güman edən yeni faktlar üzə çıxdı. (Günəşin nəzəri modeli, Kainatin ənginliklərindən gələn neytrinonun mənşəyi və s.).

Hesab edilir ki, İceCube observatoriyasının sayəsində neytrino astronomiyası elmdə yeni istiqamətdir, Kainatda elementar hissəciklərin güçlü və təbii sürətləndiricilərinin tədqiqi sahəsində yeni instrumentdir. Bu bir növ yeni "hissiyyat orqanına" bənzəyir. Çünki neytrino kanalı bizə tamamilə unikal informasıya verir. Lakin yüksək energetik neytrinonun astrofizik mənşəyi və yaranma mexanizmləri haqqında tədqiqatçıların qarşısında duran açıq suallar və problemlər hələ çoxdur. (2023-cü ildə böyük adron kollayderində 153 neytrinonun materiya ilə toqquşması qeydə alınmışdır).

Kimya üzrə

Kimya sahəsində ən çox Nobel mükafatına layiq görülən fənn üzvi kimyadır. Təkcə asimmetrik üzvi sintez sahəsində olan işlər 3 dəfə (2001, 2021 və 2026) Nobel mükafatına layiq görülüb. Tərkibində asimmetrık karbon atomu olan üzvi birləşmələr bir-birinin güzgü əksi olan 2 izomer - enantiomerlər şəklində mövcud olur. Lakin canlı orqanizmlərdə o izomerlərdən yalnız biri olur, yəni homoxiral formada olur (L-aminturşular və D-şəkərlər, zülallar və nuklein turşuları, spiral quruluşun və reaksiya üçün "cibcik"lərin yaranması).

Canlı hüceyrələrdə yalnız bir enatiomerin sintezi (yəni homoxiral sintez) milyard illərlə çəkən təkamül nəticəsində formalaşıb. Lakin əlində kolba olan kimyaçı üçün bu böyük çətinlik yaradır (enantiomerlərin fiziki xassələri eyni olduğundan onları ayırmaq olmur, onların yalnız optiki aktivlikləri fərqlənir). Farmakologiyada bu məsələ böyük problemlər yaradır və hətta ölüm və ya həyat önəminə gətirib çıxarır (1950-60-cı illərdə hamiləliyin ilk vaxtlarında istifadə olunan Talodimit adlı dərman rasemat şəklində istehsal edildiyindən körpələrin inkişafında anormallıq yaradırdı). Məsələn, C vitamini (bir enantiomer) və askorbin turşusu (rasemat).

Homoxiral reaksiyanı aparmaq üçün 3 şərt tələb olunur (Çarlz Frank, 1953): Avtokataliz, enantioselektiv katalizator və enantiomerlərdən birinin ingibə olunması (yəni əmələ gəlməsinin tormozlanması).

Avtokataliz hadisəsi kimyaçılara çoxdan məlum idi. Klassik misal sirkə turşusunun etilasetatın hidrolizini (etanola və sirkə turşusuna) sürətləndirməsi. Turşunun miqdarı artdıqca reaksiya da sürətlənir və sirkə turşusunun miqdarı artır.

Enantioselektiv kataliz sahəsində Uilyam Nouls (2001-ci il Nobel mükafatçısı) keçid metalı və xiral liqand əsasında aldığı katalizatordan istifadə etməklə hidrogenləşmə reaksiyasını sənaye miqyasında tətbiq edib Parkinson xəstəliyinə qarşı dərman (L-DOFA) istahsal etmişdir.

Anri Kaqanın və Kenso Soainin kəşfləri dərman maddələrinin sintezi sahəsində işləyən kimyaçılar üçün həlledici rol oynadı. Nobel Komitəsinin fikrinə görə bu alimlər canlıların kimyəvi asimmetriyası necə yaranıb sualına cavab verə bilmiş, artıq movcud olan molekul asimmetriyasını sürətləndirməyin yolunu göstərmişlər.

Asimmetrik sintezdə qeyri-xətti effektlər 2 cür olur: müsbət qeyri-xətti effekt (məhsulda enantiomerin qatılığı katalizatordakına nisbətən çox olur) və mənfi qeyri-xətti effekt (məhsulda enatiomerin qatılığı katalizatorda olduğunda az olur). Anri Kaqan əsas effekti göstərdi - bir enantiomer digərinin əmələ gəlməsini tormozlaya bilir və nəticədə xiral təmizlik dərəcəsi yüksəlir.

Ədəbiyyat üzrə

Nobel mükafatına Kanada yazıçısı, şairəsi, ellinisti, esseisti, tərcüməçi və pedaqoq Enn Karson "klassik ənənələrlə oyun dialoqunda müasir ədəbiyyatın yeni formasının yaradılmasında cəsarətli və novator yaradıcılığına" görə layiq görülüb.

Enn Karson son illərin ingilis dilli poeziyasının ən parlaq nümayəndələrindın sayılmaqla T.Eliot, Allen Qinzberq və Frenk O'Xara kimi ədəbiyyat nəhənglərinin poetik ənənələrini inkişaf etdirməklə müasir dövrün böyük şairləri sırasında yer almışdır.

Enn Karson 20-dən çox kitabında antik dövrün mətnlərinin müasirıik haqqında danışmağa necə kömək etdiyini əyani göstərmiş, qədim yunan ədəbiyyatında fəlsəfəyə həsr olunmuş Safonun, Lonqun, Heliodorun, Esxilin, Platonun qalın toz qatı altında dəfn olunmuş sətirlərini canlandırmışdır. Onun kitabları alman,francız, italyan, ispan, katalon və s. dillərə, iki kitabı isə rus dilinə də tərcümə olunmuşdur. "Avtobioqrafiə krasnoqo" şeir-romanı qədim yunan əsatirlərinin sərbəst interpretrasiyasına və yaşa dolmanın müasir tarixinə həsr oilumuşdur. "Qorko-sladkiy gros" fəlsəfilirik essesi bütün dövrlərin 100 ən yaxşı populyar kitablarından biri olub, məhəbbətə, lirikaya, erotikaya, qədim yunan ədəbiyyatında fəlsəfi fikirlərə həsr olunub.

Digər kitabları: "If not, Winter: Fraqments of Sappho" (2003); "The Beauty of the Husband: A Fictional Essey in 29 Tangos" (2002); "Norma Jtane Baker of Troy" (2019) və digərləri.

Sülh üzrə

Nobel mükafatına 287 namizəd arasından hind əsilli Cənubi Africa Respublikasının vətəndaşı, hüquqşünas Navanetxen ("Navi") Pilley sülh və beynəlxalq hüququn qorunması sahəsində fəaliyyətinə görə layiq görülüb.

Navi Pilley Ruanda üzrə Beynəlxalq cinayət tribunalının sədri, 2003-2008-ci illərdə Beynəlxalq cinayət məhkəməsinin üzvü, 2008-2014-cü illərdə isə BMT-nin insan hüquqları üzrə ali komissarı olmuşdur.

İqtisadiyyat üzrə

Robert Holl və Maykl Vüdvortun işlədikləri yeni makroiqtisadi modellər xeyli dərəcədə davamlılıq siyasətini səmərəli aparmaq üçün zəmin yaradır. Bu modellərin əsasında aparılan fiskal və monetar siyasət iqtisadi yüksəlişləri və böhranları xeyli yumşaltmağa imkan verir.

1970-ci illərdə baş verən neft böhranlarından sonra keynsian (məşhur iqtisadçı Con Keynsin şərəfinə verilən addır) tədbirləri - büdcənin defisitinin artırılması, vəziyyəti yaxşılaşdıra bilmirdi: işsizlik azalmırdı, inflyasiya nəzarətdən çıxırdı, ona görə çoxları bu siyasəti ziyanlı hesab edirdi.

R.Xoll və M.Vudvord inflyasiya, istehsal və istehlak kimi makroiqtisadi göstəricilərin statistik qarşılıqlı əlaqəsinə əsaslanan modellərdən imtina edərək mikroiqtisadi yanaşmalardan istifadə etməklə ayrı-ayrı təsərrüfatların və şirkətlərin iqtisadiyyata təsirini əsaslandırdılar. Nəzərə alaraq ki, ayrı-ayrı təsərrüfatların və şirkətlərin fəaliyyəti iqtisadiyyatı formalaşdırır, mikroiqtisadiyyat əsasında yaradılan modellər ciddi nəzəri fundament yaratmaqla indi bütün dünyada mərkəzi banklar və dövlətlər tərəfindən istifadə olunur. Bu tədqiqatlar sayəsində iqtisadi sarsıntılara daha yaxşı hazırlaşmaq imkanı əldə edilmişdir.

Müsəlman ölkələrinin Nobel mükafatçıları

Müsəlmanlar Dünya əhalisinin 22-25 %-ni təşkil edir. İndiyə qədər 1030 Nobel mükafatçısı olub ki, onlardan cəmi 15-16 nəfəri (1,5%) müsəlmanlardır.

Kimya (3) - Əhməd Zevayl (Misir, 1999) Əziz Sancar (Türkiyə, 2015) və Ömər Yaqi (İordaniya, 2025). (2023-cü ilin Nobel mükafatçısı Mungi Bavendi Tunis əsillidir, Fransada anadan olub, ABŞ-da təhsil alıb).

Ədəbiyyat (3) - Naqib Məxfuz (Misir, 1988), Orxan Pamuk (Türkiyə, 2006) və Abdulrazak Qunda (Zənzibar, 2021),

Fizika (1) - Əbdus Salam (Pakistan, 1979),

İqtisadiyyat (1) - erməni əsilli Türkiyə vətəndaşı Daron Acemoğlu (2024),

Sülh uğrunda (8) - Fələstin, Misir, İrak, Yəmən, Pakistan, Banqladeş, İran-2.

Bəzi problemlər və çətinliklər

Dünyanın çox məşhur alimləri olub ki, onlar Nobel mükafatını ala bilməyiblər (Zommerfeld, Mendeleyev, Nabokov, Murakami və s) .

Samuel Xattington "The West against the rest" kitabı. Dünya nizamında Qərb öz nümayəndələrinin daha effektli və nüfuzlu görünmələri üçün onları mükafat və təltiflərlə bəzəyir.

Kimya üzrə Nobel mükafatını yalnız 21 ölkənin nümayəndələri, əsasən ABŞ və Qərbi Avropa, almışlar (1945-ci ilə qədər ABŞ-dan cəmi 3 nəfər).

Ən çox Nobel mükafatı alan ölkələr (1901-2026): ABŞ 405, Böyük Britaniya 137, Almaniya 111, Fransa 69, İsveç 33 və s. (cəmi 1030 laureat, onlardan 68-i qadındır).

Çətinliklər: 1. dil problemi (tərcümə olunan və ingilis dilində yazılan əsərlər), 2. dünya elmi ictimaiyyəti tərəfindən geniş tanınan və dəyərləndirilən əsərlərin olması, 3. elmi mühitin və elmin yüksək səviyyəsinin zəruriliyi.

Problem: ölkənin iqtisadi inkişaf modeli və elmi bazanın yaradılması.

Müasir elmin yaxın hədəfləri

1. Materialşunaslıq (materialların genomu).
2. Neft və qazın yeni çıxarılma metodları,
3. Bərpa olunan enerji,
4. Enerji saxlayıcıları (super akkumulyatorlar),
5. Robototexnika,
6. Bulud texnologiyaları,
7. Mobil internet,
8. Əqli əməyin avtomatlaşdırılması (süni intellekt),
9. Qabaqcıl genomika,
10. Avtonom hərəkət vasitələri və s.

Çin elminin prioritetləri

Çin dövləti 2050-ci ilə kimi cəmiyyətin gələcəyi üçün mühüm rol oynayacq 4 prioritet istiqaməti xüsusi qeyd edir:

- materialların strukturuna nəzarət;
- süni həyat və sintetik biologiya;
- fotosintezin mexanizminin öyrənilməsi;
- qaranlıq materiya və qaranlıq enerjinin tədqiqi.

Kimya sahəsində dünya elminin əsas prioritetləri:

1. kompüter kimyası (süni intellekt, molekulyar kompyuterlərin yaradılması);

2. gen mühəndisliyi (canlı orqanizmlərə Si və Ge kimi elementlər daxil etməklə həyatın yeni formalarının yaradılması;

3. nano texnologiyalar (atomları ardıcıl birləşdirə bilməklə yeni molekulların yaradılması, reaksiya gedişinin vizuallaşdırılması, zülal molekullarının bioloji fəallığını onların formasını dəyişməklə nizamlanması).

AMEA-nın 2026-2030-cu illərdə "İnkişaf strategiyası və Yol xəritəsi"ndə kimya elminin prioritetləri

2.5.1. "Yaşıl" iqtisadiyyata keçid və "yaşıl" enerji təchizatçısına çevrilmək üzrə elmi tədqiqatlar (hidrogen energetikası, biokütlənin emalı),

2.5.2. "Yaşıl" və sirkulyar texnologiyaların yaradılması,

2.5.3. Kimyanın ekoloji problemləri (ətraf mühitin mühafizəsi, tullantıların idarə edilməsi),

2.5.4.Təbii və alternativ xammalın kimyəvi emalı üçün ekoloji təhlükəsiz texnologiyalar,

2.5.5. Neft kimyası sənayesinin yan məhsullarının təkrar emalı

2.5.6. Təbii qazın emalı üçün enerji qənaətli texnologiyaların yaradılması.

2.5.7.Yaşıl kimya prinsiplərindən istifadə etməklə müxtəlif təyinatlı funksional materialların və fizioloji fəal birləşmələrin alınması.

Dilqəm TAĞIYEV
AMEA-nın vitse-prezidenti, akademik

ELM

8 NOYABR - ZƏFƏR GÜNÜ



Azərbaycanın dövlətçilik və hərb tarixində 44 günlük Vətən müharibəsinin rolu

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunu davam etdirən cənab İlham Əliyev də Prezident seçildikdən sonra Azərbaycan Respublikasının müstəqil dövlət kimi beynəlxalq aləmdə xüsusi nüfuza malik olmasında, Azərbaycanın ərazi bütövlüyünün tanınmasında, Azərbaycan dövlətinin daxili və xarici siyasətinin inkişafında, xüsusilə də azərbaycanlıların soyqırımı və faciələrilə bağlı əməli və praktik addımlar atmışdır. Müstəqil Azərbaycan Prezidenti kimi İlham Əliyev bütün xarici səfərlərində, yerli və beynəlxalq çıxışlarında, ikitərəfli və çoxtərəfli danışıqlarda "Qarabağ Azərbaycandır!", "Qarabağ Azərbaycanın əzəli və əbədi torpağıdır", "Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik" şüarlarının səsləndirərək həm haqq səsimizi bütün dünyaya bəyan etdi, həm də siyasətçi - Ali Baş Komandan kimi Azərbaycanın ərazi bütövlüyünə Prezidentliyi dövründə nail oldu.

Azərbaycanın 27 sentyabr 2020-ci ildə başladığı əks-hücum əməliyyatı ilə parlaq qələbəyə Ali Baş Komandanın rəhbərliyi, öz qanı-canı bahasına Müzəffər Azərbaycan ordusu və xalqımızın milli birliyi sayəsində nail olduq. Təbii ki, Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü təmin etməklə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Nizamnaməsinin 51-ci maddəsi, beynəlxaq hüququn prinsipləri, beynəlxalq və regional təşkilatların qərarları, eləcə də tarixi ədalət və hüquqi cəhətdən dünya ölkələrinin Azərbaycan Respublikasının ərazi bütövlüyü baxımından, Azərbaycan dövləti və xalqının bir yumruq olmaqla səfərbər olaraq 44 gün ərzində tarixi ədaləti bərpa etdi. Azərbaycan Vətən müharibəsi ilə təcavüzkar Ermənistana və terror birləşmələrinə, Ermənistanı dəstəkləyən regional və beynəlxalq güclərə sübut etdi ki, Azərbaycan Rerspublikası istər diplomatiyada, istərsə də döyüş meydanında layiqincə və peşəkarcasına cavab verdi. Şəhidlərimizin qanı, qazilərimizin intiqamı, illərdir Qarabağa və işğal olunmuş torpaqlara qayıtmaq eşqi Azərbaycan xalqını və Ordusunu Vətən müharibəsinə, əks-hücum əməliyyatına başlamasına vadar edirdi.

Ermənistanın təxribatlarına və dəfələrlə hərbi təcavüzlərinə nəzər saldıqda görürük ki, 2019-cu ildən etibarən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozması, Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşması və s. hərəkətlərinə, Ermənistanın təxribatlarına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Azərbaycanın 27 sentyabr 2020-ci ildə bağladığı əks-hücum əməliyyatı apardı və haqq etdiyi parlaq qələbəyə nail oldu.

Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Ermənistan döyüş meydanında müharibə aparmaq əvəzinə Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlar ballistik raketlər və ağır artilleriya qurğularından atəşə tutulmuşdur. 27 sentyabr 2020-ci il tarixdə saat 18 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə (5 nəfər) tamamilə məhv olmuşdur. 04, 05, 08, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 26 nəfər həlak olmuş, 175 nəfər yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak olmuş, 112 nəfər yaralanmış, rayonda yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 12292 yaşayış və qeyri yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir.

